www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16-17 dekabr 2017-ci il Şənbə № 264 (6877) Qiyməti 60 qəpik

**Xəbər**

## Əmanətlərin Sığortalanması Fondunda nə baş verir - ittiham...

yazısı səh.6-da

**Gündəm**

### Prezident Sumqayıtda bir neçə müəssisənin açılışını etdi



İlham Əliyev: "Biz ili uğurla başa vururuq"

yazısı səh.3-də

### Rza Zərrabın işində falçı iddiası

yazısı səh.14-də

### Müsavat Partiyasının qərargahı əlindən alına bilər

yazısı səh.5-də

### Jurnalist Əziz Orucova 6 il həbs cəzası verildi

yazısı səh.2-də

### Deputatın mandatdan məhrum edilməsini nəzərdə tutan qanun qəbul olundu

yazısı səh.11-də

### Qızılın ucuzlaşması Neft Fondunun gəlirlərinə təsir etməyəcək

yazısı səh.6-da

### Şəhidin yaralı qızını qoyub qaçanlar...

yazısı səh.7-də

### Oqtay Əsədovun mobil telefon iradı, yoxsa yasağı...

yazısı səh.13-də

### Almaniya TAP-a qarşı - iddia

yazısı səh.9-da

### Bakıda dələduzluq edən "polkovnik" tutuldu

yazısı səh.10-da

### Putinin sürprizlərlə dolu rəqib(əs)i - Sobçak haqda bilinməyənlər...

yazısı səh.15-də

### İstanbul zirvəsi - müsəlmanlar növbəti "dünya imtahanı"ndan çıxdımı...

yazısı səh.12-də

# MAHMUDOVLA FAZİL MƏMMƏDOVUN HƏBSİ REALLAŞIR - SENSASİON GƏLİŞMƏ

Çovdarov sabiq şefini satıb; keçmiş nazirin ölkədən çıxardığı 1 milyardla bağlı müstəntiqə ifadə verdiyi deyilir; Fazil Məmmədovun da 4.5 milyardlıq "qara pul" əməliyyatı "MTN işi"nə birləşdirilə bilər




yazısı səh.7-də

# Ermənistanda kütləvi bahalaşma - düşmən fəlakətlə üz-üzə

Qarabağda panika - aclıq, bahalıq, inflyasiya; **erməni siyasətçi:** "Sərkisyan apreldə baş nazir olsa, yeni qanlar töküləcək..."

yazısı səh.8-də



### Avropa Məhkəməsi İlqar Məmmədovla bağlı xüsusi prosedura start verdi

yazısı səh.5-də



Sergey Lavrov

*Qabil Hüseynli:*

### "Lavrovun Azərbaycana səfir planı baş tutmayıb"

yazısı səh.12-də



### Veteranlar professor İlham Rəhimovu medalla mükafatlandırdılar

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

## Jurnalist Əziz Orucova 6 il cəza verildi

**"Kanal 13" internet televiziyasının direktoru Əziz Orucovun növbəti məhkəməsi keçirilib. Musavat.com xəbər ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qanunsuz sahibkarlıq fəaliyyətində təqsirləndirilən jurnalistin məhkəməsinə hakim Mirzə Xankişiyev sədrlik edib.**



Məhkəmədə hökm oxunub. Hökmə əsasən Ə.Orucov 6 il müddətinə azadlıqdan məhrum edilib.

Ötən prosesdə dövlət ittihamçısı Ə.Orucovun 7 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.

Qeyd edək ki, Ə.Orucov bu il mayın 2-də polisə müqavimət ittihamı ilə saxlanılıb, ona məhkəmə 30 sutka inzibati həbs cəzası barədə qərar çıxarıb. İyunun 1-də isə Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsində haqqında cinayət işi başlanıb, ona Cinayət Məcəlləsinin 192-ci (qanunsuz sahibkarlıq) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham verilib.

Nəsimi Rayon Məhkəməsinin qərarı ilə Ə.Orucovun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

**İ.MURADOV**

## "FED-in qərarı manata birbaşa təsir etmir" - Mərkəzi Bank

**"ABŞ-ın Federal Ehtiyat Sisteminin (FED) faizlə bağlı qərarı qısamüddətli dövrdə adətən böyük həcmdə spekulyativ kapital daxilolmalarına malik olan ölkələrə təsir göstərir. Azərbaycan isə iri həcmli spekulyativ kapital daxilolmalarına malik ölkə olmadığından FED-in son qərarının təsiri ilə burada hər hansı qısamüddətli dəyişiklik gözlənilmir".**

Bu barədə "APA-Economics"in sorğusuna cavab olaraq Azərbaycan Mərkəzi Bankından (AMB) bildirilib.

AMB bildirir ki, bu qərarın manatın məzənnəsinə birbaşa təsiri yoxdur.

"Bütövlükdə manatın məzənnəsinin kəskin dəyişməsinin fundamental iqtisadi əsası yoxdur. Belə ki, hazırda ölkədə həyata keçirilən məzənnə rejiminə uyğun olaraq manatın ABŞ dollarına nəzərən məzənnəsi valyuta bazarındakı tələb-təklif nisbətindən asılı olaraq formalaşır. Xarici valyuta bazarındakı tələb-təklif nisbəti isə əsasən tədiyə balansının vəziyyətindən, yəni ölkəyə daxil olan və ölkədən çıxan xarici valyutanın həcmi ilə yanaşı neft transferlərinin məbləğindən asılıdır ki, bunlar da bu gün tarazlaşdırıcı nisbətdə olduqları üçün manatın ABŞ dollarına nisbətən məzənnəsi sabit dinamikadadır", - deyə tənzimləyicidən bildirilib.

İki gün öncə FED uçot dərəcəsini 0,25% səviyyəsindən 1,50%-dək artırıb.

## Cənubi Koreyada vətəndaşların borcları silinir

**Məqsəd vətəndaşların həyatına yeni bir başlanğıc verməlәridir Faktxeber.com-un məlumatına görə, Cənubi Koreya hökuməti 1 milyon 600 min vətəndaşının borclarını silәcәyi barədə xəbər verib. Rəsmi nümayəndələr bunu həyata yeni bir başlanğıc verə bilmələri üçün etdiklərini bildiriblər.**

Silinəcək borclar üçün yuxarı limit 9 min 128 dollar göstərilib. Bundan başqa borcların müddəti 10 il və daha artıq olmalıdır.

Hökumət borcları silinən vətəndaşların iqtisadiyyata xeyir verəcəyinə inanır.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


# MN ordu haqqında yazılara qadağa qoyulmasına dair fikirlərə münasibət bildirdi

**Müdafiə Nazirliyi (MN) «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» qanun layihəsinin Milli Məclisdə növbəti oxunuşu zamanı orduya parlament və ya qeyri-hökumət təşkilatlarının nəzarət etməsi, eləcə də media nümayəndələrinin ordu haqqında yazılarına qadağa qoyulması ilə bağlı fikirlərə cavab verib.**




Nazirlikdən musavat.com-a bildirilib ki, il ərzində Milli Məclisin deputatları, rayon icra hakimiyyətləri, dövlət, yerli və xarici qeyri-hökumət təşkilatları və ictimai qurumlarla birlikdə hərbi hissələrdə müxtəlif səpkili 67 tədbir və layihə icra olunub.

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə müxtəlif qurumlarla birgə ölkənin rayon və şəhərlərində 40-dan artıq hərbi-vətənpərvərlik mövzusunda mədəni-kütləvi tədbir keçirilib.

Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikası İnsan Hüquqlar üzrə Müvəkkili (Ombudsman) Aparatı, Hərbi Prokurorluq, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi arasında imzalanmış iş planına uyğun olaraq hərbi hissələrə 15 dəfə səfərlər təşkil olunaraq şəxsi heyətlə görüşlər keçirilib.

Bundan əlavə, 2017-ci ildə Hesablama Palatası tərəfindən Müdafiə Nazirliyinin müxtəlif fəaliyyət sahələri üzrə təfərrüatlı yoxlanılması da həyata keçirilib.

Cari ilin 11 ayı ərzində ictimailəşdirilməsi məqsədilə Müdafiə Nazirliyi tərəfindən 1152 məlumat, 763 foto, 119 video material hazırlanaraq kütləvi informasiya vasitələrinə (KİV) ötürülüb, jurnalistlərin 124 sualı cavablandırılıb. Çəkilişlər aparılmasına 67 icazə məktubu verilib, keçirilən tədbirlərin işıqlandırılması üçün televiziya kanalları və aparıcı informasiya agentlikləri 70 dəfə tədbirlərə dəvət olunub.

Artıq üçüncü ildir ki, cəbhəboyu zonada yerləşən hərbi hissələrdə Müdafiə Nazirliyi ilə "Dinc Dünya" araşdırma mərkəzinin "Savaş jurnalistikası təlimləri" adlı birgə layihəsi keçirilir ki, buraya da yüzlərlə media nümayəndəsi cəlb olunur.

Nazirlər Kabinetinin 14 avqust 2015-ci il qərarının icrası ilə əlaqədar 50-dən çox yerli və xarici media nümayəndəsi Müdafiə Nazirliyində akkreditə olunub.

**Müdafiə nazirinin təşəbbüsü ilə il ərzində bütün hərbi hissələrdə 3 dəfə ənənəvi "Açıq qapı günü" keçirilib. Bu ayın sonlarında növbəti "Açıq qapı günü"nün keçirilməsi planlaşdırılır.**



## Pensiyaların hansı məbləğdə artırılacağı yanvarda məlum olacaq

**"2018-ci ilin yanvar ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Statistika Komitəsindən 2017-ci il üçün ölkə üzrə orta aylıq nominal əməkhaqqının artım tempi barədə məlumat alacaq. Həmin faizə uyğun olaraq pensiyaların ümumi məbləği indeksləşdiriləcək artırılacaq".**

"APA-Economics" xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib.

"Artıq əmək pensiyalarının artırılmasının yeni mexanizmi ortaya qoyulub. Bildiyiniz kimi, edilmiş dəyişikliklərə görə, əmək pensiyalarının "baza hissəsi" və "sığorta hissəsi" anlayışları yoxdur. Bu anlayışlar birləşdirilib. Əmək pensiyasının artıq bütöv məbləği var və artırılma da bütöv məbləğə tətbiq olunacaq. 2018-ci ilin yanvar ayında biz Dövlət Statistika Komitəsindən 2017-ci il üçün ölkə üzrə orta aylıq nominal əməkhaqqının artım tempi barədə məlumat alacağıq. Həmin faizə uyğun olaraq pensiyaların ümumi məbləği indeksləşdiriləcək artırılacaq. Əgər ölkə üzrə 2017-ci il ərzində orta aylıq nominal əməkhaqqının artım sürəti 7% olarsa, məsələn, 250 manat məbləğində pensiya alan adamın pensiyası 250 manatın 7%-i qədər artacaq ki, bu da 17,5 manat edir. Bu misalı aydınlaşdırmaq üçün çəkdim. Bu, kimlərə tətbiq olunmayacaq? Dövlət qulluqçusu, hərbi qulluqçu, Mərkəzi Seçki Komissiyasının üzvü, Hesablama Palatasının üzvü, deputat və sair bu kimi kateqoriyadan olan şəxslərə bu artım şamil olunmayacaq", - deyə nazir bildirib.



## Rusiyada iş adamını oğurlamaqda ittiham olunan azərbaycanlı həbs edildi

**Sankt-Peterburqda iş adamını oğurlayaraq, azad olunması üçün yarım milyon avro tələb edən şəxslər həbs olunub. Onların arasında Azərbaycan vətəndaşı da var.**

Virtualaz.org Rusiya mətbuatına istinadən xəbər verir ki, oktyabrın 29-da 3 saylı şəhər xəstəxanasına göz nahiyəsindən xəsarət alan 48 yaşlı şəxs gətirilib. Məlum olub ki, onu oğurlayıblar və başqa maşına zorla əyləşdirərək Leninqrad vilayətinə aparıblar. Orada onu döyüblər və həyat yoldaşından yarım milyon avro tələb ediblər.

Dünən polis əməkdaşları tərəfindən 31-47 yaş arası dörd nəfər şəxs saxlanılıb. Onların içərisində ən gənc olanı azərbaycanlıdır.

Saxlanılan şəxslər oktyabrın 27-də gecə saatlarında iş adamını "Volkswagen Multiven" markalı mikroavtobusa oturdaraq şəhərdən kənara - Volosovsk rayonunda yerləşən kəndə aparıblar. Biznesmeni orada döyüblər və arvadından külli miqdarda pul tələb ediblər. Pul verilecəyi vəd olunduqdan sonra iş adamını buraxıblar.

**Göründüyü kimi, adam oğruları pulu ala bilməyiblər və özləri həbs olunublar.**




## Səhiyyə Nazirliyi dərmandan zəhərlənmələrin səbəbini açıqlayıb

**"2016-cı illə müqayisədə bu il dəm qazından zəhərlənmələr azalıb". APA-nın xəbərinə görə, bunu Səhiyyə Nazirliyinin baş toksikoloqu Azər Maqsudov deyib.**

O bildirib ki, əgər 2016-cı ildə 455 nəfər dəm qazından zəhərlənmə diaqnozu ilə qəbul edilmişdisə, 2017-ci ildə rəqəm 207 nəfər təşkil edib: "Bu il dəm qazından zəhərlənmə ilə bağlı daxil olan xəstələrdən 1 nəfəri ölüb".

**A.Maqsudov qeyd edib ki, dərman preparatlarından zəhərlənmə ilə bağlı 1100 müraciət daxil olub və onlardan 602 nəfəri Klinik Tibbi Mərkəzin Toksikologiya şöbəsinə qəbul olunub**: "Həkim təyinatı olmadan qəbul edilən dərman preparatları, yüksək doza və ard-arda qəbul edilən dərmanlar zəhərlənmələrə səbəb olur və nəticədə ağır zəhərlənmə halları baş verir. Xəstələrə həkim müayinəsi olmadan və resept təyin edilmədən dərman qəbul etməyi məsləhət görmürük".

## Gürcüstanda orta aylıq əməkhaqqı artıb

**Cari ilin üçüncü rübündə Gürcüstanda orta aylıq nominal əməkhaqqı 1069,1 lari təşkil edib. APA-nın yerli bürosu Gürcüstanın Milli Statistika İdarəsinə istinadla xəbər verir ki, bu, ötən ilin analoji göstəricisindən 9% çoxdur.**

Qonşu ölkədə ən yüksək maaş tikinti sektorundadır. Bu sahədə çalışanların əməkhaqqı 1999,5 lari təşkil edir. Tikinti sektoru ilə yanaşı maliyyə (1861,3 lari) və hasilat (1337,7 lari) sahələrində də əməkhaqqı yüksəkdir.

Gürcüstanda ən aşağı əməkhaqqı isə təhsil sahəsindədir. Təhsil işçiləri 565,7 lari maaş alır.

## Məkkə və Mədinədə fotoçəkiliş qadağan olundu

**Səudiyyə Ərəbistanı hakimiyyəti Məkkə və Mədinə kimi müqəddəs şəhərlərdə foto və videoçəkilişi qadağan edib.**

AzNews.az Daily Sabah-a istinadən xəbər verir ki, qadağa ilk növbədə Məkkədəki əl-Haram məscidi və Mədinədəki Peyğəmbər məscidinə aiddir.

Çəkiliş ilk növbədə media nümayəndələri üçün qadağan olunub. Hakimiyyət bunu müqəddəs yerlərə hörmət və təhlükəsizlik naminə etdiyini bəyan edib.

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

**Azərbaycan prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıta səfər edib. Dövlət başçısı “Baku Steel Company” MMC-nin Sumqayıt boruyayma zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib.**

APA-nın məlumatına görə, “Baku Steel Company” MMC-nin müşahidə şurasının sədri Rasim Məmmədov dövlət başçısına görülən işlərlə bağlı ətraflı məlumat verib.

Dövlət başçısı zavodu işə salıb.

Məlumat verilib ki, yenidənqurmadan sonra zavodun illik istehsal gücü 90 min tondan 200 min tona çatdırılıb. Müəssisədə 531 nəfər daimi işlə təmin edilib ki, onların da orta aylıq əməkhaqqı 1500 manatdır.

Azərbaycan istehsalı olan borular daxili bazarda satılmaqla yanaşı, Almaniya, Hollandiya, Belçika, İtaliya, Avstriya, Türkiyə, Rusiya, Qazaxıstan, Litva və Ukraynaya ixrac ediləcək.

Prezident daha sonra digər obyektlərin açılışında iştirak edib. Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında “STDC” Məhdud Məsuliyyətli Cəmiyyətinin Məlumatların Emalı, Qeydə Alınması və Ötürülməsi Mərkəzinin açılışında da iştirak edib, burada müəssisənin kollektivi ilə görüşüb.





# Prezident Sumqayıtda bir neçə müəssisənin açılışını etdi

## İlham Əliyev: “Biz ili uğurla başa vururuq”

**Prezident İlham Əliyevin çıxışında deyib ki, on səkkizinci dəfədir ki, Sumqayıtda səfərdəyəm:** “Bu il ikinci dəfədir ki, gəlmişəm. Şəhərdə bütün infrastruktur layihələri demək olar ki, başa çatmaq üzrədir. Fasiləsiz içməli su ilə təminat 94 faizə çatıb, qazlaşma 100 faizdir, elektrik enerjisi ilə heç bir problem yoxdur, yeni yollar salınır. Biz bu il Bilgəh-Sumqayıt sahilboyu yeni yolun salınmasını təmin etdik. Sosial obyektlər, məktəblər, xəstəxanalar, Olimpiya kompleksi, Paralimpiya mərkəzi, "ASAN xidmət" mərkəzi yaradılıb. Bu gün biz “Kimyaçı” Mədəniyyət Sarayının əsaslı təmirdən sonra açılışını qeyd edəcəyik. Yeni həm sosial, həm iqtisadi sahədə, sənaye sahəsində çox böyük inkişaf var. Sumqayıt bulvarı isə - mən bunu bulvarın açılışında da demişəm - bir möcüzədir. Çünki qısa müddət ərzində belə bulvarın salınması doğrudan da çox böyük hadisədir. İnsanların rahat yaşaması, işlə təmin olunması üçün bütün işlər görülür. Bir daha demək istəyirəm ki, Sumqayıt dünya miqyasında böyük müasir sənaye mərkəzinə çevrilir. Bir məsələni də qeyd etməliyəm ki, bütün müəssisələr ən yüksək ekoloji standartlara malikdir. Bunu mən xüsusi tapşırmışdım. Çünki bilirsiniz ki, vaxtilə Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi. Hətta bütün beynəlxalq reytinqlərdə dünyanın ekoloji cəhətdən ən problemli şəhərlərindən biri idi. Bu gün isə Sumqayıt ekoloji cəhətdən bəlkə də ən gözəl və təmiz şəhərlərdən biridir. Bax, biz buna nail ola bilmişik. Buna görə Sumqayıtın ekoloji vəziyyətinin daim yaxşılaşdırılması diqqət mərkəzindədir və bu gün buranın təmiz havası, gözəl iqlimi əminəm ki, sumqayıtlılar üçün də çox önəmlidir.

Biz ili uğurla başa vururuq. On bir ayda sənaye istehsalı qeyri-neft sahəsində 3,5 faiz, qeyri-neft iqtisadiyyatımız 2,4 faiz, kənd təsərrüfatı 4 faizdən çox artıbdır. Budur, əsas iqtisadi göstəricilərimiz. Valyuta ehtiyatlarımız da artır, maliyyə vəziyyətimiz də çox sabitdir. Bu gün Azərbaycan belə gözəl əsərlər yaradır və xalqımıza bəxş edir. Burada, bu görüşdə iştirak edən bütün vətəndaşlar bu gün açılışında və təməlinin qoyuluşunda iştirak etdiyim müəssisələrin nümayəndələridir".



“Bu gün ölkə iqtisadiyyatı, sənaye potensialı üçün vacib olan müəssisələr fəaliyyətə başlayır. O müəssisələr ki, idxaldan asılılığı aradan götürəcək. Bu, məni çox sevindirir. Çünki bizim əsas məqsədlərimizdən biri də odur ki, yerli istehsal artsın, iş yerləri yaradılsın və idxaldan asılılıq azalsın”.

**“On bir ayda sənaye istehsalı qeyri-neft sahəsində 3,5 faiz, qeyri-neft iqtisadiyyatımız 2,4 faiz, kənd təsərrüfatı 4 faizdən çox artıb”**

APA-nın məlumatına görə, bunu Azərbaycan prezidenti İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında görülən işlərlə tanış olarkən deyib.

**Dövlət başçısı qeyd edib ki, bu gün böyük şüşə zavodunun təməli qoyulub:** “Bu zavod fəaliyyətə başlayandan sonra artıq Azərbaycanda şüşə idxalı dayandırılacaq. Əksinə, Azərbaycan özü şüşələri ixrac edəcək. Nəzərə alsaq ki, bu gün Bakıda və digər şəhərlərdə yüzlərlə yaşayış binası, müasir göydələnlər tikilir, şüşəyə tələbat çox böyük olacaq. Siz bilirsiniz ki, biz son vaxtlar xalçaçılığın inkişafına çox böyük diqqət göstəririk və artıq qısa müddət ərzində on xalça fabriki açılıb. Gələn il də on fabrik açılacaq və bütövlükdə otuz xalça fabrikinin yaradılması nəzərdə tutulur. Əlbəttə ki, bu fabriklərin uğurlu fəaliyyəti üçün yerli xammal lazımdır və əyirici-boyaq fabrikinin təməli də bu gün qoyulub. Bu, dövlət investisiyası hesabına yaradılacaq müəssisədir. Beləliklə, biz bütün xalçaçıları, həm bu fabriklərdə çalışan, eyni zamanda, fərdi qaydada işləyən xalça ustalarımızı öz xammalımızla təmin edəcəyik”.

**Prezident həmçinin bildirib ki, bu gün, eyni zamanda, siqaret fabrikinin təməli qoyulub:** “Bu fabrikin də çox böyük əhəmiyyəti var. Biz indi siqaret idxalından asılıyıq. Əlbəttə, biz hamımız istəyirik ki, Azərbaycanda siqaret istehlakı azalsın, insanlar bu pis vərdişdən əl çəksinlər. Ancaq hələ ki bu, belə deyil. Əlbəttə, daxili istehsal xarici istehsalı əvəzləməlidir. Bu fabrikdə istehsal olunacaq məhsul daxili tələbatın əlli faizini bağlayacaq. Əminəm ki, gələcəkdə biz daxili tələbatımızı 100 faiz ödəyəcəyik və eyni zamanda, xarici bazarlara ixrac edəcəyik. Bu gün Azərbaycanda tütünçülük çox sürətlə inkişaf edir. Əlbəttə ki, tütünçülüyün son məhsulu olan siqaret istehsalı da Azərbaycanda yaradılır”.

**Dövlət başçısı onu da bildirib ki, pestisid zavodunun tikintisi artıq öz həllini tapıb:** “Bu da çox vacib sahədir. Mənim göstərişimlə bu sahəyə böyük diqqət ayrılır. Çünki bu günə qədər biz yenə də idxaldan asılıyıq. İndi daxili tələbatı bu parkda yaradılan zavod tam ödəyəcək. Gələcəkdə - növbəti mərhələdə isə ixrac imkanı da yaradılacaq. Bu, kənd təsərrüfatının inkişafına çox böyük təkan verəcək. Çünki kənd təsərrüfatı sənaye istehsalı ilə bərabər, bizim əsas, prioritet istiqamətimizdir. Düzgün aqrotexniki tədbirlərin görülməsi nəticəsində biz məhsuldarlığı böyük dərəcədə artıra bilərik”.

“Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir. Burada yaradılan sənaye müəssisələri ən yüksək standartlara cavab verir” - deyə prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında görülən işlərlə tanış olarkən deyib: “Bu, yeni iş yerlərinin yaradılması deməkdir. Mənə verilən məlumata görə, hazırda Kimya Sənaye Parkında 8 mindən çox insan işləyir - həm tikintidə, həm də müəssisələrin idarə olunmasında. Gələcəkdə bu rəqəm daha da artacaq. Deməli, Sumqayıtda işsizliklə bağlı bütün məsələlər öz həllini tapacaq. Biz gələcəkdə də Sumqayıtın hərtərəfli inkişafı üçün öz dəstəyimizi verəcəyik. O ki qaldı sənaye zonalarının yaradılmasına, bu proses ölkəmizdə geniş vüsət alıb. Neftçala Sənaye Məhəlləsi fəaliyyətə başlayıb, Hacıqabul, Masallı, Sabirabad rayonlarında oxşar zonalar yaradılır. Mingəçevir Yüngül Sənaye Parkında birinci böyük fabrikin açılışı gələn ilin əvvəlində nəzərdə tutulur. Yeni Azərbaycanda sənayeləşmə prosesi sürətlə gedir. Bunun təməlində bizim siyasətimiz, xarici və yerli investorların inamı dayanır. Çünki ancaq sabit olan ölkələrə investisiya cəlb olunur. Azərbaycan o ölkələrdəndir ki, çox gözəl beynəlxalq nüfuza malikdir, iqtisadi cəhətdən uğurla inkişaf edir. Davos Forumunun hesablamalarına görə, ölkə iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə biz 35-ci yerdəyik. Bu gün Sumqayıtda bu 7 müəssisənin, bundan əlavə, bu müəssisələri qidalandıran yarımstansiyaların fəaliyyətə başlaması bizim düzgün siyasətimizi bir daha göstərir və biz 2017-ci ili uğurla başa vururuq”.

**Prezident böyük imkanlara malik olan Data Mərkəzinin açılmasından da danışıb:** “Bu, dünyanın ən son texnologiyalarına əsaslanan mərkəzdir. Azərbaycan bu sahədə də dünya miqyasında liderlik nümayiş etdirir. Bildiyiniz kimi, blokçeyn texnologiyası bu gün dünyada çox böyük diqqətə malik olan bir sahədir. Bir çox ölkələr, şirkətlər bu texnologiyanı öz ölkələrinə gətirmək üçün çalışırlar, fəaliyyət göstərirlər. Burada da Azərbaycan ön sıralardadır. Belə böyük və müasir, bütün dünya standartlarına cavab verən Data Mərkəzinin yaradılması onu göstərir ki, biz gələcəyə baxırıq, biz ölkəmizi dünyada gedən mütərəqqi proseslərə uyğun şəkildə inkişaf etdiririk. Bu, həm elm mərkəzidir, həm sənaye müəssisəsidir və həm də böyük biznes sahəsidir. Bir sözlə, bir gündə Sumqayıtda, görün, yeddi müəssisəyə təkan verilir, onların fəaliyyəti təmin edilir. Əgər biz Sumqayıt Kimya Parkının digər rezidentlərini də əlavə etsək, görərik ki, bu, doğrudan da dünya miqyasında böyük bir sənaye mərkəzidir. Çünki hazırda "SOCAR Polymer" və karbamid zavodlarının tikintisi davam edir. Bu iki layihənin ümumi sərmayə həcmi 1 milyard 700 milyon dollardır. Bu, bizə imkan verəcək ki, həm yerli istehsalı, yerli xammalı təmin edək, həm də ki, böyük ixrac imkanları yaradılacaq. Qeyd etdiyim kimi, bu sənaye parkında bütövlükdə 15 rezident var. Həm xarici, həm də daxili investorlar burada fəaliyyət göstərirlər. Əgər biz vaxtında bu qərarı qəbul etməsəydik və dövlət öz tərəfindən bütün lazimi tədbirləri görməsəydi, o cümlədən maliyyə dəstəyini göstərməsəydi, əlbəttə ki, bu gün bu park da olmayacaqdı və biz bu gözəl imkanlardan məhrum ola bilərdik. Əminəm ki, Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti gələcəkdə daha da genişləndiriləcəkdir. Burada böyük ərazilər var, yeni layihələr təqdim olunur, yeni layihələr nəzərdən keçirilir. Ona görə bu parkın çox böyük gələcəyi var".

Sonda prezident qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə sumqayıtlıları təbrik edib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

# Tikinti şirkətləri binaları sökərkən vətəndaşların hüquqları necə qorunur?

## "Sipark" şirkətinin nümayəndəsi Rizvan Abdullayev: "Sakinlərin rahatlığı üçün hər cür şərait yaratmışıq"

**Məlum olduğu kimi, bu ilin martında baş nazir Artur Rasi-zadə "Xruşşovka"ların sökülməsinə qərar verdi. Bundan sonra paytaxtda növbəti tikinti bumunun başlayacağı gözlənilən idi. Qərarda qeyd edilirdi ki, Bakı şəhərinin mikrorayonlarında "Xruşşovka" kimi tanınan müvəqqəti yaşayış üçün nəzərdə tutulan, öz istismar müddətini başa vurmuş iripanelli yaşayış binalarında yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və təhlükəsizliyinin təmin edilməsi üçün həmin binaların sökülərək yerində müasir tələblərə uyğun yeni çoxmərtəbəli binalar tikiləcək.**

Qeyd edək ki, artıq Bakının əksər mikrorayonlarında bu işə başlanılıb və əsasən investorların, yeni özəl tikinti şirkətlərinin iştirakı ilə həyata keçirilir. Lakin burada önəmli məsələlərdən biri də sökuləcək köhnə binalardan çıxarılan sakinlərin mülkiyyət hüququnun təmin olunması, yeni binalar hazır olduqdan sonra onların mənzillə təmin olunması, həmçinin bu müddətdə onların kirayə evlərlə təmin olunması idi.

*Bəs görəsən, hazırda bu işi həyata keçirən şirkətlər sakinləri hansı şərtlərlə köçürürlər? Onların mülkiyyət hüququ Nazirlər Kabinetinin qərarında göstərilən şəkildə təmin olunurmu?*

"Yeni Müsavat"ın müxbiri bu suallara aydınlıq gətirmək üçün bir neçə özəl tikinti şirkətinə baş çəkib, həyata keçirilən pilot layihələrin şərtləri ilə maraqlanıb.

İlk olaraq Nizami rayonu ərazisində fəaliyyət göstərən "Orbita" MTK-nın ofisinə baş çəkdik. Qeyd edək ki, bu şirkət Nizami rayonundakı ikimərtəbəli və beşmərtəbəli köhnə və qəzalı vəziyyətdə olan yaşayış binalarının sakinlərini köçürüb, yerində yeni binaların tikintisinə başlayıblar.

**Satış meneceri bizə bildirdi ki, artıq Tofiq Abbasov 24-26 ünvanındakı ikimərtəbəli qəzalı binanın sakinlərini köçürüb, binanı söküblər:** "Yerində təzə binanın tikilməsi üçün bünövrə qazılır. Şərtlərinə gəlincə isə köçürülən sakinlər ilk növbədə iki il müddətinə kirayə evlərə yerləşdirilib və aylıq kirayə haqları şirkət tərəfindən ödənilir. Yeni binanın iki ilə təhvil verilməsi gözlənilir. Bundan sonra həmin sakinlərə yeni və təmirli mənzillər təqdim olunacaq. Lakin veriləcək mənzil bizim tərəfimizdən seçiləcək. Bəzi vətəndaşlar bizdən mənzil əvəzinə pul tələb etsələr də, bununla razılaşmırıq. Əksər sakinlərin evləri bir otaqlı olsa da, biz onlara daha geniş mənzil verəcəyik".

Qeyd edək ki, Nazirlər Kabinetinin qərarına əsasən sakinlərə köhnə mənzillərinin kvadratmetrindən 20 faiz daha böyük mənzil verilməsi nəzərdə tutulur. Bu isə həmin vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılması məqsədi ilə həyata keçirilir.

Növbəti üz tutduğumuz ünvan özəl tikinti şirkəti olan "Sipark" şirkətinin Nərimanov rayonunda yerləşən ofisi oldu. Bu şirkətin köçürmə şirkətinin şərtləri daha çox sakinlərin mənafeyinə xidmət edir. Şirkətin rəsmisi Rizvan Abdullayevin "Yeni Müsavat"ın müxbirinə verdiyi məlumata görə, hazırda rayon icra hakimiyyətinin göstərişi ilə iki pilot layihə həyata keçirilir: "Məlumdur ki, köhnə binaların sökülüb yerində çoxmərtəbəli binaların tikilməsi pilot layihə çərçivəsində aparılır. Nərimanov Rayon İcra Hakimiyyətinin göstərişi ilə biz Mirəli Qaşqay və Möhsün Sənani küçələrinin kəsişməsində 16 mərtəbəli 5 girişli yaşayış kompleksi, həmçinin Təbriz küçəsi və Kazım Kazımzadə küçələrinin kəsişməsində yenə də böyük bir pilot layihənin işlərinə başlamışıq. Əsas məqsədimiz köçürüləcək olan sakinlərin heç bir hüquqlarını pozmamaqdır. Onun da qeyd edim ki, çox zaman köçürüləcək olan ailələrin mənzillərinin kvadratmetri az olur. Köçürmələr zamanı bir çox mənzillərin 15-20 kvadratmetr olduğunun şahidi olduq. Lakin buna baxmayaraq həmin ailələrə 53-54 kvadratmetrlik mənzillər veriləcək. Nazirlər Kabinetinin sərəncamına əsasən, pilot layihələrdə mənzilin ümumi kvadratmetrinin 20 faizi qədər əlavə mənzil həmin sakinlərə verilir. Ancaq biz çalışırıq ki, onların maddi rifahını, yaşayış şəraitlərini yaxşılaşdırmaq üçün əlimizdən gələni edək. Ona görə də, kiçik kvadratlı mənzil sahiblərinin əksəriyyətinə 53-54 kvadratmetrlik mənzil verməyi nəzərdə tuturuq".





**Mənzil sahibləri ilə müqavilələrin hansı şərtlərlə bağlanmasına gəlincə, R.Abdullayev bildirdi ki, köçürülən sakinlərlə 2 illik müqavilə bağlanıb:** "Həmin sakinləri şəhərin müxtəlif yerlərində ailə tərkiblərinin sayından asılı olaraq ikiotaqlı, üçotaqlı kirayə mənzillərdə yerləşdirmişik. İki il müddətində mənzildən asılı olaraq 300 manatdan 600 manata qədər aylıq kirayə haqlarını ödəyirik. Daha sonra onları təmirli, yeni mənzillərə köçürəcəyik".

*Məlum olduğu kimi, Bakıda tikinti şirkəti ilə köçürüləcək olan sakinlər arasında tez-tez mübahisələr yaranır. Mənzil sahibləri pilot layihələr həyata keçirən şirkətə o qədər də etibar etmirlər. Bəs görəsən, tikinti şirkətləri insanları inandırmaq üçün necə iş aparırlar?*

**"Sipark" şirkətinin rəsmisi qeyd etdi ki, köçürüləcək binanın sakinləri ilə şirkət rəhbərliyi səviyyəsində görüşlər keçirilir:** "Vətəndaşları da başa düşmək olar. Biz köçürmədən öncə həmin binaların sakinləri ilə fərdi qaydada görüşlər keçiririk. Bu görüşlərdə onları inandırmağa çalışırıq. Hüquqi sənədləri, tikintisi aparılan bina üçün müvafiq qurumlardan aldığımız icazələri təqdim edirik. Onlar da görürlər ki, "Sipark" digər şirkətlərdən fərqlənir. Təqdim etdiyimiz şərtlər onlara sərf edir. Söhbət zamanı bəlli olur ki, sakinlər bəzi tikinti şirkətləri ilə yaşanan qalmaqallardan sonra bu məsələdə ehtiyatlı davranmağa çalışırlar. Yəni kirayə mənzillərə görə kirayə haqqının az verilməsi, evlərin ölçüsünün düzgün hesablanmaması və sair kimi hallar yaşanır. Sözsüz ki, narazı qalanlar da olur. Belə olanda biz onları şirkətə çağırıb, onlar üçün qaranlıq qalan məqamları izah edirik".



Vətəndaşların əsas narahatlıqlarından biri də yeni binalar hazır olduqdan sonra onların ən narahat və arzuolunmaz mənzillərə köçürəcəkləri qorxusudur. Tikinti şirkətləri daha gözəl mənzilləri satışa çıxartmaq üçün, köçürəcəkləri sakinlərə yaxşı mənzillər vermirlər.

### "Bina hazır olduqdan sonra köçürülən sakinlərə seçim imkanı veririk. Yəni vətəndaş 16 mərtəbəli binanın istənilən mərtəbəsindən, istənilən hissədə olan mənzili seçə bilər"




**Bu məsələyə münasibət bildirən Rizvan Abdullayev təmsil etdiyi şirkətin təcrübəsini bizimlə bölüşdü:** "Bizim təcrübəmiz belədir ki, bina hazır olduqdan sonra köçürülən sakinlərə seçim imkanı veririk. Yəni vətəndaş 16 mərtəbəli binanın istənilən mərtəbəsindən, istənilən hissədə olan mənzili seçə bilər. Bildiyiniz kimi, hər bir sırada eyni ölçülü mənzillər olur. Misal üçün 1-dən, 16-dək eyniölçülü ikiotaqlı mənzillərdir. Bütün bunlar sakinlərin arzusuna uyğun şəkildə veriləcək ki, şirkətlə mənzil sahibi arasında problem yaranmasın. Çünki bu, hər iki tərəfin imzası ilə təsdiq olunmuş müqavilədir. Müqavilənin bir nüsxəsi onlarda, bir nüsxəsi isə bizim şirkətdə olur. Bu, şirkət tərəfindən təsdiq olunmuş müqavilədir. Əgər qanun çıxarılsa ki, şirkətin verdiyi müqavilə notarial qaydada təsdiq olunsun, biz ona da gedəcəyik. Bu həm bizə olan güvəni artıracaq, həm də mənzil sahibində əminlik yaradacaq ki, dövlət orqanı tərəfdən təsdiq olunmuş sənədi var. Səhv etmirəmsə, bu prosesə artıq baxılır. Bu bizim şirkət üçün də müsbətdir".

❑ **Məğrur MƏRD,**
❑ **"Yeni Müsavat"**
❑ **Fotolar müəllifindir**

# Veteranlar professor İlham Rəhimovu mükafatlandırdılar

## O, Respublika Veteranları Təşkilatının "Veteran Həmrəyliyi" və "General Həzi Aslanov" medalı ilə təltif edildi

**Respublikanın əməkdar hüquqşünası Rusiya Təhlükəsizlik, Müdafiə, Qanunun aliliyi Akademiyasının akademiki, Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının sədri, hüquq elmləri doktoru, professor İlham Rəhimov dekabrın 5-də Respublika Veteranlar Təşkilatında olub.**







Öncə İlham Rəhimov Respublika Veteranlar Təşkilatında yaradılmış şəraitlə tanış oldu. Təşkilatın tarixi, respublikamızda həyata keçirilən veteran hərəkatında təşkilatın rolu, eləcə də, Prezident İlham Əliyevin veteranlara göstərdiyi diqqət və qayğı barəsində qonağa geniş məlumat verildi.

Daha sonra Respublika Veteranlar Təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynovla professor İlham Rəhimovun görüşü keçirildi. Görüşdə həmçinin Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov və təşkilatın Rəyasət Heyətinin üzvü hüquq elmləri doktoru, professor Bəhram Zahidov da iştirak edib.

General polkovnik Tofiq Ağahüseynov İlham Rəhimovu qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib. Təşkilatın sədri İlham Rəhimovun Azərbaycan xalqı və elmi qarşısında danılmaz fəaliyyəti olduğunu diqqətə çatdırmış, veteranların hüquqlarının müdafiəsi, onların sosial problemlərinin həlli istiqamətində gördüyü işlərin təqdirəlayiq olduğunu bildirib.

Professor İlham Rəhimov da öz növbəsində Tofiq Ağahüseynovun timsalında bütün veteranları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni il bayramı münasibətilə təbrik etdi. Respublika Veteranlar Təşkilatında yaradılmış şəraiti yüksək qiymətləndirən İlham Rəhimov təşkilatla tanışlıqdan məmnunluq ifadə etdi. Respublikamızda veteran hərəkatının yüksələn xətlə inkişaf etdiyini, bu sahəyə dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərildiyini, Respublika Veteranlar Təşkilatının bütün qəbildən olan veteranların sosial problərinin həlli istiqamətində gördüyü işlərin əvəzsiz olduğunu bildirdi. Təşkilatın əməkdaşlarının işini yüksək qiymətləndirərək onlara fəaliyyətlərində müvəffəqiyyətlər arzuladı.

Professor İlham Rəhimov rəhbərlik etdiyi Qara dəniz-Xəzər regionu ölkələrinin Hüquqşünaslar Assosiasiyasının Azərbaycan Respublikasında həyata keçirdiyi, xüsusən də veteranların hüquqları sahəsində gördüyü işlər barəsində məlumat verdi. Assosiasiyanın Respublika Veteranlar Təşkilatı ilə əməkdaşlıq etməyə və gələcəkdə Veteranların hüquqlarının müdafiəsi sahəsində təşkilata dəstək olmağa hazır olduğunu diqqətə çatdırdı.

Görüşdə Respublika Veteranlar Təşkilatı ilə Qara dəniz-Xəzər regionu ölkələrinin Hüquqşünaslar Assosiasiyası arasında əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Əməkdaşlığın hər iki qurum üçün xüsusi önəm daşıdığı ifadə edildi.

Daha sonra Respublika Veteranlar Təşkilatının sədri Tofiq Ağahüseynov İlham Rəhimova respublikada həyata keçirilən veteran hərəkatındakı fəal iştirakına görə təşkilatın təsis etdiyi "Veteran Həmrəyliyi" və "Həzi Aslanov" yubiley medalını təqdim etdi. Sonda Xatirə şəkli çəkdirildi.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

# Avropa Məhkəməsi İlqar Məmmədovla bağlı xüsusi prosedura start verdi

## "AŞ da anlayır ki, Azərbaycanı itirməklə, bu ölkəni qurumdan kənarda qoymaqla ciddi bir nailiyyət əldə edilməyəcək"

**Həbsdə olan REAL sədri İlqar Məmmədovun azadlığa buraxılması üçün Azərbaycan hökumətinə növbəti dəfə çağırış edib. Ekspertlər bunu son şans kimi də qiymətləndirir. Belə ki, Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) mətbuat üçün açıqlamasında deyilir ki, qurum Azərbaycanın müxalifət siyasətçisi İlqar Məmmədov barədə AİHM-in 2014-cü il hökmünü icra etməməsi ilə əlaqədar rəsmi Bakıya qarşı xüsusi prosedura başlayıb.**

Bu prosedurada məqsəd Azərbaycanın hazırda həbsxanada olan İlqar Məmmədov barədə AİHM-in hökmünün icrasından imtina edib-etmədiyinin bir daha müəyyənləşdirilməsidir.

Bu da qeyd olunur ki, Avropa İnsan Haqları Konvensiyasına 2010-cu ildə daxil edilmiş bu prosedur Avropa Şurası Nazirlər Kabinetinə üzv ölkənin məhkəmə qərarını yerinə yetirməməsi barədə AİHM-ə müraciət səlahiyyəti verir.

Nazirlər Komitəsi Azərbaycan hakimiyyətinin Məmmədovun qeyd-şərtsiz azadlığa buraxılmasına dair AİHM hökmünü icra etməkdən inadkarlıqla imtina etməsi ilə bağlı dekabrın 5-də Azərbaycana qarşı xüsusi prosedura başlamaq qərarına gəlib. Avropa Məhkəməsi Komitənin bu barədə müraciətini dekabrın 11-də aldığını bildirir.

Bu prosedur AİHM-in Böyük Palatası tərəfindən keçirilir.

Dekabrın 5-də Avropa Şurası Nazirlər Komitəsinin ölkəmizə qarşı başladığı prosedurdan sonra xüsusi bir proseduranın başladılması bir sıra müəmmalara yol açır. Son addımın əvvəlkindən nə ilə fərqləndiyi barədə suallar yaranıb.



**İ.Məmmədovun vəkili Fuad Ağayev** heç bir müəmmanın olmadığını söylədi: "Bu barədə hər kəs öz fikrini bildirib, həmçinin biz də. Bu məhz həmin dekabrın 5-də başladılan proseduradır ki, Avropa Şurası Nazirlər Komitəsi bunun əsasında Avropa İnsan Haqları Məhkəməsinə Azərbaycan tərəfin üzərinə götürdüyü beynəlxalq hüquq normalarını pozub-pozmamaqla bağlı sorğu ilə müraciət edib. Avropa Məhkəməsi də həmin sorğuya baxmalıdır. İndi hansı şəkildə edir, hansı şəkildə aparılacaq, bu nə qədər vaxt alacaq, onu deyə bilmərəm. Çünki Avropa Məhkəməsinin indiyə qədər belə bir praktikası olmayıb, ilk belə haldır".

**REAL-ın icraçı katibi Natiq Cəfərli** Avropa Şurasında ilk dəfədir ki, belə bir ciddi proseduranın başlandığını bildirdi: "Son müraciət ona dəlalət edir ki, nə Avropa Şurası Azərbaycanı itirmək istəmir, nə də Azərbaycan bu qurumu. Azərbaycan rəhbərliyinin mövqeyi odur ki, istənilən halda danışıqları kəsməsin, davamlı şəkildə aparsın, müəyyən ortaq məxrəcə gəlib bu problem həll olunsun. Məsələnin həm də görünən tərəfi budur. Avropa Şurası da yaxşı anlayır ki, Azərbaycanı itirməklə, bu ölkəni qurumdan kənarda qoymaqla ciddi bir nailiyyət əldə etməyəcək. Amma bu problemin yeganə həlli yolu da İlqar Məmmədovun azadlığa buraxılmasından keçir. O həbsdən azad olunan kimi proseduralara son qoyulacaq. Nəticədə Avropa Şurası ilə Azərbaycan arasında yaranmış gərginlik aradan qalxmış olacaq. Bu nöqteyi-nəzərdən Azərbaycan hökumətinə bu bir mesajdır ki, məsələni tezliklə həll edin. Xüsusi prosedur qaydalarının həyata keçirilməsi üçün də müəyyən zaman tələb olunacaq, bir neçə ay çəkəcək. Sanki Avropa Şurası mesaj verir ki, üzümüzə gələn bir neçə yaxın ay ərzində İlqar Məmmədovla bağlı problemi həll edin. Bu problem aradan qalxan kimi də, prosedur qaydalar ortadan qalxacaq. Son xüsusi proseduranın başladılması da qaydalardan biridir. Mediada gedən hər hansı bir açıqlama rəsmi mövqe sayılmır. Bu baxımdan prezidentin Xarici məsələlər üzrə köməkçisi Novruz Məmmədovun İlqar Məmmədovla bağlı bir neçə gün öncə verdiyi açıqlama hakimiyyətin mövqeyi sayılmır. Avropa Şurası Nazirlər Komitəsi ilə Avropa Məhkəməsinin öz daxili prosedura, intizam qaydaları var. Bu qaydalara uyğun olaraq, rəsmi cavab istəyir. Əslində Nazirlər Komitəsi Avropa Məhkəməsindən bunun hüquqi qiymətləndirilməsini istəyir. Bu qiymətləndirmədən sonra Nazirlər Komitəsi növbəti dəfə toplanacaq və bu qərara qiymət verəcək. Bildiyiniz kimi, Avropa Məhkəməsinin İlqar Məmmədovla bağlı iki qərarı var. 2014-cü ildə verilmiş birinci qərarla bağlı ilk hissə yerinə yetirilib. Yeni Azərbaycan hökuməti maddi təzminat məsələsini həll edib, amma ikinci dərhal azadlığa buraxılma, qeyri-qanuni həbs olunma ilə bağlı hissəsini yerinə yetirmir. Buna Avropa Məhkəməsi rəsmi cavab verməlidir. Bunun üçün də Azərbaycan tərəfə müraciət olunmalıdır ki, rəsmi şəkildə öz mövqeyini, yanaşmasını bildirsin. Mətbuatda gedən açıqlamalarla rəsmi mövqe arasında fərq ola bilər. Prosedura qaydalarına görə, rəsmi Bakı Avropa Məhkəməsinə yazılı qayda ilə rəsmi şəkildə cavab verməlidir. Böyük ehtimalla sonuncu müraciət bunun üçün edilib. Çox güman ki, yaxın aylarda Azərbaycan tərəfi öz rəsmi mövqeyini Avropa Məhkəməsinə bildirəcək. Bundan sonra məhkəmə rəy verəcək. Rəydən sonra Nazirlər Komitəsi toplanıb, bu rəyi dəyərləndirəcək".

❑ **Cavanşir ABBASLI**

# Müsavat Partiyasının qərargahı əlindən alına bilər

## "Mübahisə varsa bu, icarədarla, icarəçi arasında qarşılıqlı razılıq əsasında həll oluna bilər"

**Əmlak Məsələləri Dövlət Komitəsi Müsavat Partiyasına xəbərdarlıq edib. Bu barədə partiyanın funksionerləri məlumat yayıblar. Məlumata görə, Komitə sədrinin müavini Rafiq Cəlilovun imzaladığı xəbərdarlıq məktubu partiyaya dekabrın 14-də təqdim olunub.**

Məktubda söhbət əmlakın "icarəyə verənin razılığı olmadan icarəçi tərəfindən 2-ci əldən (subicarəyə) və ya hər hansı məqsədlə istifadəyə verilməsindən" gedir və bu halda müqaviləyə xitam veriləcəyi qeyd edilir.

Partiya rəhbərliyi deyir ki, xəbərdarlığa səbəb Respublikaçı Alternativ (REAL) Hərəkatının bazasında yaradılacaq partiyanın təsis qurultayının Müsavatda keçirilməsi qərarıdır.

**Partiyanın mətbuat xidmətinin rəhbəri Mustafa Hacıbəyli** isə BBC Azərbaycancaya bildirib ki, partiya rəhbərliyi bu məsələni müzakirə etmək üçün toplaşıb:

"Müxtəlif illərdə bizim qərargahımızdan müxtəlif partiya və siyasi birliklər toplaşmaq üçün istifadə edib. AXCP-dən tutmuş, İctimai Palata, Milli Şura, "NİDA" hərəkatına qədər".

**REAL hərəkatının İdarə Heyətinin üzvü Azər Qasımlı** "Yeni Müsavat"a bildirib ki, onlar qurultay keçirmək qərarını dəyişməyiblər:

"Bizim planlarımızda hər hansı bir dəyişiklik yoxdur. Məsələdən xəbərdarıq. Müsavat Partiyası da göndərilən xəbərdarlığa münasibətini bildirib. Orada digər siyasi təşkilatlar və partiyalar da öz tədbirlərini keçiriblər. Niyə onlara olar, REAL-a olmaz. Bu mövqeyi Müsavat Partiyası ifadə edib. İqtidar tərəfinin isə mövqeyi hələ tam bəlli deyil. Ona görə də bizim mövcud planlarımız qüvvəsində qalır. Ayın 17-də qurultay keçirməklə bağlı qərarımızı dəyişməmişik".

*Bu vəziyyətdə əmlak icarədar tərəfindən geri alına bilərmi?*



"Yeni Müsavat"a danışan **hüquqşünas Əlimənməd Nuriyev** bildirib ki, bu, müqavilənin şərtlərindən asılı olan bir məsələdir:

"İcarə müqaviləsində şərtlər müəyyən edilir. Bu, icarəyə götürülən əmlakdan istifadə və ya onun yenidən icarəyə verilməməsi ilə bağlı olur. Bilmirəm ki, onların icarə müqaviləsində bu şərtlər nəzərdə tutulub, yoxsa yox. Qanunvericiliyə görə icarədar yeni bir situasiya yaranırsa, bunu, əlbəttə ki, icarəyə verənlə razılaşdırmalıdır. Ancaq qeyd etdiyim kimi bu halda icarə müqaviləsində yazılanlardan xəbərdar olub, sonra şərh vermək olar. Ən doğrusunu Müsavat Partiyasının müvafiq strukturları bilirlər. Təbii ki, dövlət əmlakının icarəyə verilməsinin icarədarı Əmlak Məsələləri Dövlət Komitəsidir. Anlaşılmazlıqlar da onlarla müzakirə edilməlidir. Bütün hallarda icarə müqavilələrində belə bir şərt də daimi nəzərdə tutulur ki, yaranan mübahisələr qarşılıqlı razılaşma ilə həll oluna bilər. İndiki halda da mübahisə varsa bu, icarədarla, icarəçi arasında qarşılıqlı razılıq əsasında həll oluna bilər".

**Qeyd edək ki, REAL Hərəkatı bu il oktyabrın 29-da qurultay keçirmək niyyətində idi. Qurultayda hərəkatın partiyaya çevriləcəyi gözlənirdi. Bu qərar sentyabrın 24-də hərəkatın rayonlardan və Bakıdan gələn təmsilçilərinin iştirakı ilə qəbul edilmişdi. Həmin qərardan sonra Təşəbbüs Qrupu qurultaya yer ayrılmasından ötrü Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etmişdi. Müraciət Bakı Şəhər İcra Hakimiyyəti Mədəniyyət və Turizm Baş İdarəsinə göndərilmişdi.Ancaq Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsi Respublikaçı Alternativ Partiyası Təşəbbüs Qrupunun təsis qurultayı keçirməkdən ötrü yer ayrılması xahişi ilə müraciətinə müsbət cavab verməmişdi. Cavabda onların məktubda qeyd etdikləri məkanda tədbirin keçirilməsi mümkün sayılmamışdı. Hərəkat ikinci müraciətlə də istəyinə nail ola bilməmişdi.**

❑ **Əli RAİS**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

# Əmanətlərin Sığortalanması Fondunda nə baş verir?

## Hüquqşünas qanun pozuntularını göstərdi

**Hesablama Palatası Əmanətlərin Sığortalanması Fondunun fəaliyyətində ciddi qanun pozuntuları aşkarlayıb. Bu barədə məlumat verən Palatanın sədri Vüqar Gülməmmədov deyib ki, "Əmanətlərin Sığortalanması Fondunda audit tədbiri başa çatmayıb, proses davam edir".**

Onun sözlərinə görə, hələlik yalnız iki bankın müştərilərinə ödənilən kompensasiyaların araşdırılması başa çatıb: "Müəyyən olunub ki, Fond tərəfindən iki bankın müştərilərinə kompensasiyaların verilməsi zamanı bəzi maliyyə və hüquq pozuntularına yol verilib. Bu faktların ciddiliyini nəzərə alaraq Hesablama Palatasının Kollegiyası bu materialların hüquq-mühafizə orqanlarına göndərilməsi ilə bağlı qərar qəbul edib".

Xatırladaq ki, Əmanətlərin Sığortalanması Fondunun fəaliyyətindən narazılıqlar Milli Məclis səviyyəsində müzakirələrə səbəb olmuşdu. Bu ilin avqustunda Əmanətlərin Sığortalanması Fondunun əvvəlki icraçı direktoru Azad Cavadov növbəti 5 illik səlahiyyət müddəti bitdiyi üçün vəzifəsindən azad olunub. Direktor səlahiyyətlərinin icrası Vüqar Abdullayevə həvalə olunub. Həmin vaxt Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov mətbuata verdiyi açıqlamada Fondun ciddi problemlərinin olduğunu deyib: "Dövlət büdcəsindən 350 milyon manat vəsait ayrılanda biz bu məsələyə toxunduq ki, niyə dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsi yoxlanılmır. Mən təklif etdim ki, Hesablama Palatası həmin vəsaitlərin xərclənməsi ilə bağlı yoxlamalar aparsın. Mili Məclisin payız sessiyası başlayanda bu məsələyə yenidən baxılacaq. Çünki Əmanətlərin Sığortalanması Fondu ciddi bir orqandır. Bu orqanı əmanətlərin sığortalanması və əhalinin əziyyət çəkməməsi üçün yaratdılar. Amma təəssüf ki, keçən müddət ərzində bağlanan banklarla ələqədar çox ciddi problemlər yaranıb və qalmaqdadır. Mən hesab edirəm ki, Fondu ciddi şəkildə yoxlamaq lazımdır".

*Palata sədri hansı bankları nəzərdə tutub?*

*Əmanətlərin Sığortalanması Fondu bağlanan banklar üzrə fəaliyyətində hansı qanun pozuntularına yol verə bilər? Palatanın haqqında bəhs etdiyi hansı banklardır?* Bu kimi suallarımızı cavablandıran **hüquqşünas, "Bank Standard" Kreditorlar Şurasının rəhbəri Əkrəm Həsənov** hesab edir ki, haqqında bəhs edilən 2 bank mövcud kredit və əmlakından xeyli çox həcmdə borca malik banklar ola bilər: "Biz dəfələrlə məsələ qaldırmışdıq ki, Hesablama Palatası Fondun fəaliyyətini yoxlasın. Bu yoxlamanın başlanması xeyli sevindiricidir. Palatanın yoxlamış olduğu 2 banka gəlincə, bağlanan 11 bank arasında yalnız 2 bankın kredit və əmlakının dəyəri verilməli olan borcundan qat-qat azdır. Əmanətlərin Sığortalanması Fondunun keçmiş rəhbəri Azad Cavadov bu ilin mayında açıqlamışdı ki, bunlar "Bank Standard" və "Texnikabank"dır. Böyük ehtimalla, söhbət bu 2 bankdan gedir. Ən azından birinin "Bank Standard" olduğuna əminəm".

**Ə.Həsənov deyir ki, Fondun yol vermiş olduğu ən böyük qanun pozuntusu növbədənkənar qaydada bəzi kreditorların pulunun qaytarılmasıdır:** "Məsələn, "Bank Standard"da biz bunu dəqiq bilirik, yəqin ki, digər banklarda da var. "Bank Standard"da növbədənkənar qaydada Mərkəzi Bankın 20 milyon manatını, İpoteka Fondunun 41 milyon manatını qaytarıblar. Sahibkarlığa Kömək Milli Fondunun da 20,3 milyon manat pulunu qaytarmaq istəyirdilər, biz imkan vermədik. Bu Fondun digər banklarda da pulu vardı, yəqin ki, onlarda qaytarıblar".

"Banklar haqqında" qanuna əsasən ƏSF bağlanan banklarda ilk növbədə özünün vəsaitlərini, sonra xərclərini götürməlidir. Bu sırada üçüncü növbədə bankların işçilərinin əmək və sair borclarının, dördüncü olaraq dövlətə olan vergi borcunun ödənməsi gəlir. Beşinci yerdə isə digərləri gəlir: "Bu digərlərinə fiziki və hüquqi şəxslər, tutalım, Mərkəzi Bank, şirkətlər, fərdi şəxslər daxildir. Hansı ki, onların vəsaitləri də proporsional qaydada borcun məbləğinə uyğun qaytarılmalıdır. Bunlar isə götürüb dövlət qurumlarının borclarını bütünlüklə bağlayıblar, digərləri qalıb kənarda. Niyə?"

On milyonlarla manatlıq kreditlərin iddia müddəti ötürülüb

**Ə.Həsənov digər qanun pozuntusu kimi borclarla əmanətlərin əvəzləşdirilməsindəki nöqsanları qeyd edir:** "Bəzi adamlar var ki, bankdan kredit götürüb, həm də orada əmanətləri var. Bu halda borcla əmanəti əvəzləşdirmək olar. Lakin bizə çatan məlumata görə, belə hallar da olub ki, borcu olan bir şəxsin borcunu digər şəxsin əmanəti ilə əvəzləşdiriblər. Hansı ki, qanunvericilik buna yol vermir. Digər qanun pozuntusu kreditlərlə bağlıdır. Məsələn, "Bank Standard" üzrə 20 milyon manatdan çox kreditin iddia müddəti keçirilib. Yəni artıq bu kreditlər üzrə məhkəmədə iş qaldırmaq mümkün deyil. Burada isə məsuliyyəti birbaşa Fond daşıyır. Banka borcu olanlarla bağlı iddiaları vaxtında qaldırmalıydılar. Yenə də bizə çatan məlumatlara görə, burada korrupsiya əməlləri mühüm rol oynayıb: məsələn, 1 milyon krediti olan biri gəlib Fonda 100 min verir ki, iddia müddəti ötürülsün. Biz Fonddan tələb edirik ki, məsuliyyətsizlik edənlərin adlarını açıqlasınlar. Bu qədər pulu necə keçmək olar".

**Hüquqşünasın sözlərinə görə, pozuntu imkanlarının geniş olduğu bir sahə də bağlanan bankların əmlakının satışı ilə bağlıdır:** "Bankın borclarını qaytarmaq üçün onun əmlakı hərrac yolu ilə satılmalıdır. Görünən odur ki, burada ciddi qapalılıq hökm sürür. Hansı bankın hansı əmlakının nə zaman hərraca çıxarılmasından, necə satılmasından heç kimin xəbəri olmur. Bu isə sui-istifadə imkanlarını genişləndirir. Biz məsələ qaldırmışıq ki, "Standard Bank"ın əmlakı açıq hərracla satılsın, Fondun yeni rəhbəri buna söz verib".

**Ə.Həsənov onu da qeyd edir ki, bağlanan digər bankların kreditorlarından ona çoxsaylı müraciətlər daxil olur:** "Onların heç birinə Fond tərəfindən hər hansı məlumat təqdim olunmur. Halbuki hər rüb onlara bankın maliyyə hesabatı verilməlidir. Heç bankın ləğvi barədə belə kreditorlara məlumat verilməyib. Belə qapalılıq isə bütün növ korrupsiyalara, qanun pozuntularına yol aça bilər".

❑ **Dünya SAKİT**

# Qızılın ucuzlaşması Neft Fondunun gəlirlərinə təsir etməyəcək

**Dünya bazarında neftin qiyməti artdıqca qızılın qiymətində geriləmələr qeydə alınmaqdadır. Bir neçə gün əvvəl qlobal əmtəə bazarlarında bu metalın qiyməti hərraclarda 1 238,40 ABŞ dollarına kimi geriləyərək son 5 ayın minimal səviyyəsinə düşüb.**

## Ekspert: "Qızılın ucuzlaşması neftin bahalaşması fonunda baş verir"



ABŞ Federal Ehtiyat Sisteminin (FED) uçot dərəcəsini artırmaq qərarından sonra qızılın qiymətində ciddi artım qeydə alınaraq unsiyası 1260 dolları keçib.

Qeyd edək ki, ilin əvvəli ilə müqayisədə qızıl dekabrın ilk ongünlüyündə 8,3 faiz baha satılıb. Mütəxəssislər qızılı daha çox bir maliyyə aktivi kimi heç bir dividend gətirməyən, ancaq geosiyasi risklərin artdığı və ya maliyyə böhranının kəskinləşdiyi dövrlərdə "sakit liman" kimi investisiya olunan alət kimi qiymətləndirirlər. Hesab olunur ki, dünya iqtisadiyyatında gözlənilən artımlar, həmçinin, neftin qiymətinin yüksəlməsi nəticəsində qızılın qiymətindəki qısamüddətli artım əks proseslə əvəz olunacaq. Qiymətlərin hətta 1200 dolların altına düşəcəyi proqnozlaşdırılır.

Xatırladaq ki, Azərbaycan Dövlət Neft Fondu 2012-ci ildən qızıl ehtiyatına malikdir. Fond həmin ildən investisiya portfelinə qızılı da daxil etməyə başlayıb. Hazırda Fondun 30,1 ton qızılı var. Bu metalın qiymətindəki tərəddüdlər davamlı ucuzlaşmayla nəticələnərsə, Neft Fondunun timsalında Azərbaycan nə qədər itki ilə üzləşə bilər?

Suala cavab verən **iqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu** hesab edir ki, qızılın qiymətinin düşməsi Neft Fondunun gəlirlərinə, bütövlükdə maliyyə nəticələrindən olan itkilərə ciddi təsir göstərməyəcək: "Çünki qızılın Fondun investisiya portfelində payı cəmi 3,5 faiz təşkil edir. Qızılla olan aktivlərin həcmi 30 ton 170 kiloqramdır. Payın investisiya portfelində çəkisinin az olması qızılın qiymət itkisi ilə bağlı itkilərin də payının cüzi olmasına gətirib çıxarır. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, qızılın ucuzlaşması neftin bahalaşması fonunda baş verir. Hesablamalar göstərir ki, neftin qiymətinin hər 5 dollar bahalaşması Neft Fonduna təxminən 800 milyon manat vəsait gətirir. Bu baxımdan qızılın ucuzlaşmasından yaranan cüzi itkiləri neftin qiymətindəki artımdan əlavə qazanclar kompensasiya edir".

**Müsahibimizin sözlərinə görə, hazırda bizim qızılda olan aktivlərimiz 1 milyard 245 milyon dollar təşkil edir:** "Qızıl 10 faiz ucuzlaşarsa, 120 milyon dollar itkiyə gedə bilər. Hansı ki, hələlik ən azı yaxın müddətli dövr üçün belə kəskin və davamlı ucuzlaşma proqnozlaşdırılmır. Neftin 10 faiz bahalaşması isə Neft Fondunun gəlirlərinin 1 milyard manata yaxın artım deməkdir".

Onu da qeyd edək ki, Azərbaycan həm də qızıl hasilatçısıdır. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, bu ilin yanvar-noyabr aylarında ölkəmizdə 5 669 kq qızıl istehsal edilib. Bu, 2016-cı ilin 11 ayı ilə müqayisədə 3,2 dəfə çoxdur.

Azərbaycanda qızıl hazırda dövlətə məxsus "Azerigold" QSC və hasilatın pay bölgüsü sazişi çərçivəsində Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABMƏŞ) tərəfindən hasil olunur. ABMƏŞ-lə olan sazişə əsasən, gələn ildən etibarən mənfəətə çıxılması - yəni hasilata çəkilən xərclərin tam olaraq qarşılanması nəzərdə tutulur. Qızılın qiymətindəki ucuzlaşma isə bu prosesi ləngidə bilər.

❑ **DÜNYA**

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

# Eldar Mahmudovla Fazil Məmmədovun həbsi reallaşır - sensasion gəlişmə

## Çovdarov sabiq şefini satıb; keçmiş nazirin ölkədən çıxardığı 1 milyardla bağlı müstəntiqə ifadə verdiyi deyilir; Fazil Məmmədovun da 4.5 milyardlıq "qara pul" əməliyyatı "MTN işi"nə birləşdirilə bilər

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov dekabrın 15-də Baş Prokurorluğun Ağır Cinayətlərin İstintaqı İdarəsində yenidən dindirilib. Sabiq nazirlə bağlı istintaq hərəkətləri davam etdirilib. İstintaqın gedişi ilə bağlı yayılan məlumatlarda iddia edilir ki, Eldar Mahmudov ölkədən çıxarılan daha 1 milyard dolların taleyi ilə bağlı dindirilir. Bu 1 milyard onun oğlu Anar Mahmudovun adına Almaniyada qeydiyyatdan keçirilən şirkətin bank hesablarına köçürülüb.**




Sayt yazır ki, istintaq prosesində yenilik də üzə çıxıb. Belə ki, artıq azadlıqdan məhrum edilmiş general Akif Çovdarovun Eldar Mahmudova qarşı verdiyi ifadələr işdə yeni təfərrüatlar yaradıb. Akif Çovdarov bir neçə yüz milyon dolların taleyi ilə bağlı suallara cavab verərkən bu pulları müxtəlif zamanlarda şəxsən Eldar Mahmudova təhvil verdiyini iddia edib.

Yada salaq ki, Eldar Mahmudovu buna qədər Baş Prokurorluğun Ağır Cinayətlərin İstintaqı İdarəsinə artıq 2 dəfə dindiriblər. Əvvəlki dindirmələrin əmisi oğlu və köməkçisi vəzifəsini daşımış Vüqar Mahmudovun cinayət işi çərçivəsində gerçəkləşdiyi bildirilirdi. V.Mahmudov ləğv olunmuş MTN Antiterror Mərkəzinin şöbə rəisinin müavini vəzifəsində işləyib. Faktiki olaraq nazirin köməkçisi funksiyasını həyata keçirib. Polkovnik-leytenant Vüqar Mahmudov bu ilin noyabrında həbsə alınıb. O, nazirliyin vəzifəli şəxsləri barəsində Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq idarəsində istintaq edilən cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilib. Sabiq nazirin əmisi oğlu Vüqar Mahmudova özgə əmlakının mütəşəkkil dəstə tərkibində külli miqdarda mənimsəmə, ayrı-ayrı vətəndaşların əmlakını hədə-qorxu ilə tələb etmə, əməliyyat-axtarış fəaliyyəti haqda qanunvericiliyin tələblərini kobud surətdə pozma, vəzifə saxtakarlığı, eləcə də şəxsi maraqlarına görə qulluq mövqeyindən sui-istifadə faktları üzrə ittihamlar elan olunub. Barəsində Bakı Hərbi Məhkəməsinin qərarı ilə 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Eldar Mahmudovun dekabrın 15-də istintaqda dindirilməsi ilə bağlı yayılan xəbərdən isə belə aydın olur ki, sabiq naziri ölkədən 1 milyard dollar çıxarılması ətrafında sorğu-sual ediblər. Mümkündür ki, keçmiş nazir həmin pulları ölkədən hazırda həbsdə olan əmisi oğlu Vüqar Mahmudovun vasitəsilə çıxarıb. V.Mahmudov bu il noyabrın 3-də həbs edildikdən sonra belə xəbərlər yayılmışdı ki, ondan Eldar Mahmudovun həbsinə əsas ola biləcək ifadələr alınıb. Bildirilirdi ki, V.Mahmudov E.Mahmudovun köməkçisi statusunda olsa da, bir çox hallarda nazir müavinlərindən artıq səlahiyyətli olub. İddialara görə, onun kabinetində bir neçə iri seyf olub. Həmin seyflərə iş adamlarından, müxtəlif vəzifə sahiblərindən, məmurlardan toplanan xəraclar yığılıb. Sonradan həmin pullar kisələrə doldurularaq "Azəriqazbank"a daşınıb. Məlumdur ki, "Azəriqazbank" rəhbəri Çingiz Əsədullayevlə Eldar Mahmudovun çox yaxın münasibətləri var, sabiq nazir "vurulan"dan sonra Ç.Əsədullayev mətbuata açıqlamasında bu əlaqələri gizlətməyib. İstintaqda belə məlumatlar var ki, Eldar Mahmudov MTN-ə rəhbərlik etdiyi dövrdə ayrı-ayrı iş adamlarından alınan pullar "Azəriqazbank"a daşınaraq oradakı hesablara yatırılıb. Bu əməliyyatlara Vüqar Mahmudovun rəhbərlik etdiyi iddia olunur. MTN-də yığılan rüşvət pullarının kisələrə doldurularaq banka rahat daşınmasına hazırlıq görülürmüş. Ç.Əsədullayevin Şahin adlı sürücüsü onun xidməti maşını - qara rəngli, Az 10 JO 900 nömrə nişanlı "Mutsibishi Pajero" ilə həftədə bir neçə dəfə MTN-ə gedərək oradan maşına yüklənən pul dolu kisələrlə banka qayıdıb. Pulun sürücüyə təhvil verilməsinə də Vüqar Mahmudov nəzarət edib. Sonradan "qara pul"lar xaricdəki bank hesablarına ötürülüb.

Vüqar Mahmudovun bu epizodlar üzrə dindirildiyi haqda məlumatlar vardı. Deyilirdi ki, yaxın zamanlarda Çingiz Əsədullayev də Vüqar Mahmudovun işi üzrə istintaqa dəvət edilərək həbs oluna bilər. Buna qədər də mətbuatda "Azəriqazbank"da baş verən qanunsuzluqlar, neqativ hallar, müştərilərin aldadılması, qanunsuz pul köçürmələri və digər bu kimi hallar barədə müxtəlif yazılar dərc olunurdu. Ç.Əsədullayev deputat olduğu dövrlərdə adı Beynəlxalq Bankın dövlətin milyardlarla manat vəsaitinin talan edilməsi üzə çıxdıqdan sonra gündəmə gəlmişdi. "Beynəlxalq Bank işi"ndə dindirilən iş adamları arasında Çingiz Əsədullayevin də adı keçirdi. O dövrdə deputat olan bankir yayılan məlumatları təkzib etsə də, onun məhz Beynəlxalq Bankda külli miqdarda mənimsəmə faktlarına görə hədəfə gəldiyi şübhə doğurmurdu. Əsasən MTN tərəfindən cəzalandırılan şəxslərdən yığılan pullar Vüqar Mahmudov tərəfindən toplanaraq bu haqda nazirə məruzə olunurmuş. Belə xəbərlər də var ki, Eldar Mahmudovu "sağ əli" olan əmisi oğlunun ifadəsi əsasında həbs etmək istəyirlər.

2015-ci ilin oktyabrında "MTN işi" başladılan günlərdə bu xəbərlər yayılsa da, ötən 2 il ərzində məlumatlar araşdırılmamış qaldığı kimi görünürdü. İndi isə aydın olur ki, istintaq bu məsələləri araşdırmaqdadır. Bundan başqa həmin günlərdə "MTN işi"nin digər nazirliklərə sıçrayacağı da gözlənilirdi. 2015-ci ildə Rabitə və Yüksək Texnologiyalar Nazirliyində həqiqətən də araşdırmalar başlandı. Belə xəbərlər yayıldı ki, "MTN işi" araşdırması çərçivəsində Eldar Mahmudov çetesinin bir qolu da Vergilər Nazirliyinə uzanıb. Həmin günlərdə məsələ Vergilər Nazirliyinin İbtidai Araşdırma Departamentinin rəisi, general Vidadi Məmmədovun işdən çıxarılması və istintaqa cəlb olunması ilə məhdudlaşdı.

Yayılan xəbərlərə görə, ölkədən iri məbləğlərin çıxarılması məsələləri paralel olaraq Vergilər Nazirliyinin işdən qəfil uzaqlaşdırılan rəhbərliyi - sabiq nazir Fazil Məmmədov və komanda üzvlərinin barəsində aparılan qeyri-rəsmi araşdırmaların mövzusudur. Fazil Məmmədovla Eldar Mahmudovun qarşılıqlı dəstək şəklində ölkədən iri məbləğlərin çıxardıqları iddia olunur. Xatırladaq ki, Fazil Məmmədov işdən qəfil çıxarılandan sonra onun ölkədən 4 milyard 500 milyon manat pul çıxarması haqda iddialar yayılıb. Sonrakı məlumatlarda Fazil Məmmədovun ölkədən "qara pul" transferlərində Vergilər Nazirliyinin təhlükəsizlik xidməti rəisi işləmiş Samir Qurbanovun, qardaşı "ATA-Holdinq"in Müşahidə Şurasının üzvü Qafar Qurbanovun və digər qardaşı Rəfael Qurbanovun əlaqələrindən istifadə etdiyi deyilirdi. Bildirilirdi ki, Q.Qurbanov vergilər naziri Fazil Məmmədovun ən yaxın və inanılmış adamlarından biridir. Onun xaricdəki biznesinin idarəçiliyi ilə məşğul olur. "ATA Holdinq"in Müşahidə Şurasının üzvüdür.

Həmçinin qeyd olunurdu ki, Fazil Məmmədov Rafael Qurbanovun təşkilatçılıq imkanlarından və əlaqələrindən ölkə xaricində işlərini aşırmaq üçün istifadə edib. Qeyd olunurdu ki, 2013-cü ildə Samir Qurbanov Vergilər Nazirliyində işdən çıxarılandan sonra tabel silahı ilə Vergilər Nazirliyinin əsas giriş qapısına, video kameralara atəş açıb. Bundan sonra Fazil Məmmədov onu həbs etdirib. Amma onu çox həbsdə saxlaya bilməyib. Belə ki, Samir Qurbanov və qardaşı Fazil Məmmədovu Xaləddin İsgəndərovun gizlinlərini ictimailəşdirməklə təhdid ediblər. Bildiriblər ki, onların iştirakı və üzərlərindən gerçəkləşdirilən maxinasiyalar haqda danışacaqlar. Həmin vaxt mətbuatda Fazil Məmmədovun özəl və biznes xəbərləri, o cümlədən hətta xaricdəki bank hesabları barədə təfərrüatlar mətbuata sızdırılmağa başlamışdı. Bundan sonra vergilər naziri çetesi daxilində yaranan ciddi problemin sülh yolu ilə həlli istiqamətində addımlar atıb. İlk addım kimi də Samir Qurbanovu həbsdən çıxartdırıb.

Vaxtilə Bakı Şəhər Baş Polis İdarəsində Cinayət-Axtarış İdarəsinin rəisi işləmiş Samir Qurbanovun azad olunandan sonra ölkədən getdiyi haqda da xəbərlər var. Mümkündür ki, Fazil Məmmədovla əlaqəli aparılan səssiz araşdırmaların bir elementi də bu məsələ olsun. Vergilər Nazirliyinin sabiq rəhbərliyi haqda araşdırmalar rəsmi xarakter alarsa, Qurbanovların əli ilə görülən qara işlər də üzə çıxacaq. Ən azı istintaq materiallarında yer ala bilər. Mümkündür ki, sabiq nazirlərin - Eldar Mahmudovla Fazil Məmmədovun işi bir icraatda birləşdirilsin.

❑ E.HÜSEYNOV
❑ "Yeni Müsavat"

# Şəhidin yaralı qızını qoyub qaçanlar...





**Elton Əkbərov. Son günlər bu şəhidin adı mətbuatda tez-tez çəkilir. Nədən ki, Elton Əkbərovun qızı Könül Əkbərovanı bir oliqarxın 17 yaşlı oğlu "JEEP"-lə vurub üstündən keçib, yaralını hadisə yerində qoyub qaçıb və şəhidin qızı dünyasını dəyişib...**

Çiynində onlarla yaralanmış döyüş yoldaşını düşmən gülləsi altından çıxarıb xilas edən, elə yaralı döyüş yoldaşlarını döyüş meydanından çıxarmağa çalışarkən həlak olan kişinin - şəhidin qızını isə bir harın uşaq vurduğu yerdə qoyub qaçıb. Bu, əslində bir kitablıq həyat hekayəsidir...

Elton Əkbərov adını hər dəfə mətbuatda gedən məlum olayda oxuyanda göz önümdə birinci avtoqəza canlana bilmir heç cür. Bu ad-soyad mənə 1992-ci ildə Göyçaya ilk şəhid gəlməsini, rayondakı misli görünməmiş izdihamı xatırladır. Elton Əkbərov Göyçayın ilk şəhidi idi! Onadək biz göyçaylılar şəhid nədir, bilmirdik. 7-ci sinifdə oxuyurdum həmin vaxt. Məktəbimizin o zamankı direktor müavini, hərəkat iştirakçısı Əlirasim Əhmədov bizləri şəhidin dəfn mərasiminə aparmışdı.

İlk dəfə avtomatı, silahlı döyüşçüləri də orada görmüşdüm. Elton Əkbərov dəfn edildikdən sonra sıra ilə düzülmüş hərbçilər havaya xeyli atəş açmışdılar. Barıt qoxusu da ilk dəfə onda dəymişdi burnuma.

Kimdir Elton Əkbərov? 1954-cü ildə Göyçayda doğulan E.Əkbərov 1988-ci ildə milli azadlıq hərəkatına qoşulub. Onun haqqında göyçaylılar ilk dəfə 1990-cı ilin 20 yanvar faciəsi zamanı eşitmişdilər. İşğalçı rus ordusu yanvar qırğınını törədəndə Elton Əkbərov da yaralanmışdı. O, qanlı yanvar gecəsi yaralı halda digər yaralıları xəstəxanaya daşımışdı.

Daha sonra Dağlıq Qarabağda müharibə alovlananda bir neçə nəfər dostu, tanışı ilə birlikdə Göyçay Könüllülər Batalyonu formalaşdırıb cəbhəyə yollanmışdı. Şuşanın müdafiəsinə qoşulmuşdu. Mənim əmim də ona qoşulub yollanmışdı cəbhəyə...

O, növbəti güllə yarasını Daşaltı əməliyyatı zamanı almışdı. Qısa müddətlik müalicədən sonra yenidən döyüşlərə qatılmışdı Əkbərov.

1992-ci il aprelin sonlarında Şuşanın Kosalar kəndi ərazisində Hacı Talası adlanan ərazidə gedən şiddətli döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini məhv etdikdən sonra özü də 1992-ci il aprelin 29-da qəhrəmancasına şəhid oldu. 2 gün sonra - mayın 1-də isə Göyçayda dəfn edildi. Həmin gündən bizlərin "Dağın dibindəki park" kimi tanıdığımız məkan Şəhidlər Xiyabanına çevrildi, sonra rayona gələn şəhidlərin çoxu burada torpağa tapşırıldı...

Taleyin işinə bax, çiyinlərdə şəhid kimi gedən, döyüşlər zamanı isə onlarla döyüş yoldaşlarını güllə altında çiyinə alıb xilas edən Elton Əkbərovun qızını bir oliqarxın oğlu vurur, yaralı halda yerdə qoyur və qaçır...

Məncə, Elton Əkbərovun ruhunu çox sızladır bu! Axı ona heç cür çatmazdı yaralını qoyub qaçmaq! Onun yaralı balasını küçədə qoyub qaçıblar!

Hansı ki, Elton Əkbərov vətən uğrunda canını qoyanda, vuruşanda bu gün onun övladını vurub yolda qoyub qaçan, sürücülük hüququ olmayan 17 yaşlı Rəhim Rəhimovun atası Akif Rəhimov Bakıda özünə biznes qururdu. Sağlığına qismət, 20 ildən çoxdur şadlıq evləri, xəz-dəri fabrikləri var. Elton isə şəhid olmağı seçdi. Əmin imiş ki, qoruduğu vətəndə övladlarına haqsızlıq edilməyəcək. Amma nə biləydi ki, qızı Könülü vuran sürücü tutulanda, ürəkli oğlanlar döyüşdəykən, bugünkü 17 yaşlı "qəhrəman"ın həmin müharibə illərində biznes quran atası gəlib istintaqda şəhidin xanımının üstünə bozaracaq. Deyəcək ki, qızın niyə yola çıxırdı ki, oğlum da onu vurub öldürsün?! Hardan biləydi ki, balasını vuran azyaşlı sürücünün vətənə ancaq pul toplamaq yeri kimi baxan atası o puldan basıb qızının - Könül Əkbərovanın qanını batırmağa çalışacaq, oğlunu istintaqdan yayındırmaq üçün müxtəlif yollardan istifadə etmək istəyəcək...

Düz 20 gün istintaqı da aldadıblar ki, guya maşını sürən başqa biri olub. Nəhayət, məsələ ictimailəşəndən sonra gerçək günahkar tutuldu.

**Amma bu, yenə də yaraları sağaltmaz. Əlbəttə, heç o uşaq da, onun atası da belə bir hadisənin olmasını qətiyyən arzulamazdılar. Ancaq adamı düşündürən, yandıran təkcə bir məqam var: məhz döyüşdə yaralanan soydaşını çiyinə alıb apararkən, son qanınadək döyüşüb şəhid olan kişinin qızını yaralı halda küçədə qoyub qaçıblar...**

❑ Elşad MƏMMƏDLİ
❑ "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017



# Seçkilər ləğv olunsun

Zamin HACI
zaminhaci@gmail.com

(zamanı qabaqlama cəhdi)

**Xəbər lentində başlıq oxudum: "Təhsil Nazirliyindən yenilik". Doğrusu, heç açıb içinə baxmadım. Ancaq elə başlığın özü bir az öncə yazdıqlarımızı - istənilən nazirliyin nazir olmadan da yaxşı işləyəcəyini təsdiqləyir. Axırıncı dəfə o nazirlikdən hansı yenilik xəbəri oxumuşdunuz? İndi isə nazir yoxdur, yeniliklər sel kimi gəlir. Sözgəlişi, bütün müəllimləri qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrənglik günü münasibətilə səmimi qəlbdən təbrik edirəm, qoy onlar hər mövsümdə hazırlaşdırmağa azı 3-4 uşaq tutsunlar, ilahi, amin. Bu saat manıslar toy, mollalar ölü, jurnalistlər tema, şairlər qafiyə, qaişniklər sürücü tutmağa çalışdığı kimi, müəllimlər də uşaq tutmağa çalışırlar. Qınamaq olmaz, bizdə müəllimə verilən maaşla Afrikada antilop otaranlar da işləməzlər.**

Yenilikçi sahələrimiz çoxdur. Bir xəbər də deputatxanadan gəlmişdir. Orada seçki qanununa əl gəzdirirlər. İndən belə seçkilər tam qanuna uyğun olacaqdır, döşündə bülleten, caynağında protokol daşıyanlar qoduqluğa salınacaqdır. Millət kimə istəsə, səs verəcəkdir. Zarafat edirəm, əlbəttə. Guya biz səs verə bilirik? Biz heç bilmirik nəyi istəyirik, kimi istəyirik. O üzdən, seçkiləri hökumət istədiyi formada qayırsa yaxşıdır. Seçicini özbaşına qoysan, məntəqəni batırar. MSK dedi, altım qızıldır, müşahidəçi dedi, gəzib gəlmişəm. Daşdan səs çıxdı, deputatdan səs çıxmadı.

Nəsə, folklora çox aludə olmayaq, yeniliklər dövründə yaşayırıq. Seçki qanununa dəyişiklikdən danışırdıq. Demək, indiyə qədər hər məntəqənin girişində bir səsvermə komissiyası üzvü dayanıb seçicilərin vəsiqəsini yoxlayırdı. Daha heç kim yoxlamayacaqdır. Hansı dəstəni istəyirsən bas içəri, avtobusla adamları doldur gətir məntəqəyə, səs verib getsinlər.

Bu çox yaxşı yenilikdir, çünki indiyə qədər müxalifətçilər-zad da qapının ağzını kəsdirib camaatın sənədlərinə baxırdılar, görürdün qışqırırdılar ki, filankəs ayrı yerdə uçotdadır, lakin burda səs verir, seçki saxtadır, ay nə bilim nə... Sonra gəl bu müxalifətçini polis çağırıb sürütlə, o da getsin məhkəməyə versin, Avropada cərimə çıxsın və saire. Uzun işgəncə. Güclü övladlarımız varsa, sənədi yoxlamağa nə ehtiyac? Vətəndaşlar saxtakarlıq eləməyi unudublar. Yeri gəlmişkən, bu mütərəqqi addıma etiraz edən bir deputat deyib ki, terrorçular məntəqəyə soxular-lar, sənəd yoxlamasını qüvvədə saxlamalıyıq. Sənə mandat verənin... Bu nə boş-boş danışır? Elə bil biz Suriyada, Fələstində, nə bilim, Ermənistanda və Almaniyada yaşayırıq, terrorçular da küçədə at ilxısı, it sürüsü kimi dolaşırlar. Terrorçuluğun kökü bizdə mükəmməl daxili-xarici siyasət sayəsində çoxdan kəsilibdir. Bir-iki nəfər mıqqıldamaq istəyən olmuşdu, onları da 2-3 il qabaq məhkəməsiz-filansız təpəsindən qoyub göndərdilər o biri dünyaya. Mənçə bu deputatın mandatını gələn dəfə göstərib verməmək lazımdır.

Əslində uca millətimiz seçkilərin tamamilə ləğv edilməsini arzu edir, nəyə lazımdır ki? Seçki o deməkdir ki, indi olanı bəyənmirsən, təzəsini axtarırsan. Hamımız gələcəyimizi YAP və onun siyasətinə tapşırmışıq, müxalifət sinif kimi ləğv olunub. İdeal hakimiyyət qurulub, daha alternativi hardan tapasan? Putin demişkən, özləri özlərinə rəqib tapası deyillər. Qarabağı almışıq, qiymətlər hərdən bala-bala qalxır, heç hiss eləmirik, ərəblər gəlir, rus səfirini isə qovmuşuq. Maşının üstünə əlini qoyursan, axıra qədər belə qalsan maşın sənin olur. Afaq Aslan da hərdən şəkil çəkdirir, camaat baxır. Ta nə lazımdır millətə? Uzun ömür, can sağlığı. Seçkilər bəlkə də MSK üzvlərinin maaşını vermək üçün saxlanılan bir mənasız prosedurdur.

**Məzahir müəllim çoxdandır yenilik eləmir, yəqin onu işdən çıxaracaqlar.**

# Qarabağda panika - aclıq, bahalıq, inflyasiya...

**Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsində olan-qalan erməni əhalinin güzəranı nəinki ildən-ilə, aydan-aya pisləşir. Xarici aləmə yeganə quru çıxışı blokada şəraitindəki Ermənistana olan bölgədə hansısa iqtisadiyyatdan danışmağa isə təbii ki, dəymir. Əgər Ermənistanın öz iqtisadiyyatı dərin böhran içindədirsə, separatçı rejimin hansısa iqtisadi göstəricilərindən danışmaq absurd olar.**



# Ermənistanda kütləvi bahalaşma - düşmən fəlakətlə üz-üzə

## Yeni ildən Ermənistanda və separatçı bölgədə 800-dən çox adda məhsulun, o cümlədən benzinin qiymətinin artacağı gözlənilir; **erməni siyasətçi:** "Sərkisyan apreldə baş nazir olsa, yeni qanlar töküləcək..."

Ancaq bu da hələ son deyil. "Yeni Müsavat" erməni qaynaqlarına istinadən xəbər verir ki, axır vaxtlar Dağlıq Qarabağda yeni bahalaşma dalğası başlayıb. Söhbət gündəlik tələbat mallarından, ələlxüsus ərzaq məhsullarından gedir. Bunun əsas səbəbi də Ermənistandakı bahalıq göstərilir.

Gələn xəbərlərə görə, erməni dramının dəyər itirməsi nəticəsində sürətlənən inflyasiya dərhal Dağlıq Qarabağda da əks-səda verib. Çünki burda yaşayan erməni əhali müstəsna olaraq Ermənistanın hesabına öz mövcudluğunu saxlayır. Ermənistanın illik büdcəsində Dağlıq Qarabağın xərcləri ayrıca maddə ilə göstərilir.

Ancaq xarici borcu (5 milyard dollar) illik büdcəsini (3 milyard) üstələyən Ermənistan heç öz əhalisini dolandıra bilmir. Bundan əlavə, işğalçı ordunu saxlamaq, yeni-yeni silahlar almaq və Azərbaycanla silahlanma yarışında ayaqlaşmaq zərurəti təcavüzkar ölkənin iqtisadi-maliyyə durumunu ildən-ilə bir az da pisləşdirməkdədir. Bu da öz növbəsində Dağlıq Qarabağdakı əhalinin iqtisadi vəziyyətinə dərhal və adekvat neqativ təsirlər göstərməkdədir.

****

Gələn xəbərlərə görə, artıq separatçı bölgədə bir sıra zəruri tələbat malları bahalaşıb. Musavat.com-un məlumatına görə, bununla bağlı qondarma qurumun qondarma parlamentinin "deputatı" Ayk Xanumyan 1 in.am saytına müsahibəsində deyib: "Belə qiymət artımı gözlənilirdi. Ona görə ki, "Arsax" (dırnaqlar bizimdir - red.) Ermənistanla eyni iqtisadi müstəvidədir. Odur ki, orada malların bahalaşması "Artsax"a da aiddir. Bura infrastruktur və logistika ilə bağlı problemləri də əlavə eləsək görərik ki, Xankəndində qida məhsulları İrəvan mağazalarındakından daha bahadır".

Xanumyan deyir ki, mövcud situasiyadan çıxmaq yönündə yerli hökumət eynilə Ermənistan hökuməti kimi heç bir addım atmır və tam olaraq özünü hərəkətsiz və qabiliyyətsiz aparır.

Qeyd edək ki, 1 yanvar 2018-ci ildən Avrasiya İqtisadi Birliyinə görə Ermənistanda 800 addan çox məhsulun bahalaşması gözlənilir. Yanvarda həmçinin benzinin, spirtli içkilərin və sıxılmış qazın qiyməti qalxacaq. Xanumyanın sözlərinə görə, bu bahalaşma dərhal Dağlıq Qarabağda da özünü göstərəcək. Yəni əslində separatçı rejimdə ümidsizlik qarışıq, bir panik ovqat yaşanır.

"İqtisadiyyata təsir edən neqativ faktorlara gəlincə, mən burada Ermənistanda mövcud olan monopoliyanı qeyd eləmək istəyirəm - hansı ki, yekun etibarilə "arsaxlıların" da güzəranına dağıdıcı təsir göstərir", - deyə o, təəssüflə əlavə edib.

*****

Lakin problem tək Ermənistandakı monopolistlərdə olsaydı, nə var idi ki. Artıq vurğulandığı kimi, Ermənistan və onunla birgə Dağlıq Qarabağ bölgəsi həll olunmamış münaqişə üzündən xarici aləmdən, əsas qonşular kimi Türkiyə və Azərbaycanla normal iqtisadi-ticari, kommunikasiya əlaqələrindən məhrumdur, təcrid vəziyyətindədir. Bu vəziyyət isə yalnız işğal rejimi sona yetdikdə düzələ bilər.

Ermənistandakı ictimai-siyasi xadimlər də həyəcan təbili çalırlar. Məsələn, "Yeni Müsavat"ın məlumatına görə, "Demokratiya naminə əməkdaşlıq" ictimai təşkilatının sədri Stepan Danielyan yuxarıda adı çəkilən erməni nəşrinə müsahibəsində son 20 ildə Ermənistanda iqtisadi durumun stabil ağır olaraq qaldığını deyib və bunun da əsas səbəblərindən biri kimi, ölkədə effektli idarəçiliyin olmamasını göstərib.

"Partiyalar həmişə xalqı aldadıb. Təbii ki, insanlar artıq ağıllanıb və partiyalara etimad bəsləmirlər. Müxalifətlə hakimiyyət - eyni şeydir. Ermənistanda hələlik ağıl çatmır. Bizə yalan danışmaq adi haldır - istər hakimiyyət olsun, istərsə də müxalifət. Və idarəçilik mexanizmi də yoxdur. Hakimiyyət uğrunda mübarizə müxtəlif oliqarxik qruplar arasında gedir. Müxalifət isə bu və ya başqa qrupun maraqlarına xidmət edir. Köhnə bir mexanizm var: ya şah xalqla aristokratiyaya qarşıdır, ya da aristokratiya xalqa qarşıdır. Bizdə isə mexanizm belədir: Serj Sərkisyan oliqarxiya ilə birgə xalqa qarşıdır. Əgər Sərksiyan baş nazir olsa (apreldə - red.), yeni bir oyun başlanacaq və bu, qan tökülməsi ilə də nəticələnə bilər".

*****

Ermənistanın, onun böhran içində olan iqtisadiyyatının tək problemi əslində elə hakimiyyətdəki Sərkisyan rejimidir, "Qarabağ klanı"dır. Yada salaq ki, Sərkisyan 2008-ci il martın 1-də birinci müddətə prezidentliyinə nümayişçiləri gülləboran eləməklə (8 ölü) başlayıb. Yəni hakimiyyət maraqları naminə öz xalqının qanını tökmək ondan ötrü problem deyil.

**Erməni xalqı, o cümlədən işğal altındakı Dağlıq Qarabağdakı ermənilər nəhayət ki, normal güzərana qovuşmaq istəyirsə, o zaman ilk növbədə bu barədə düşünməli, iqtidardakı "Qarabağ klanı"nın girovluğundan qurtulmalıdır. Əks halda, 2018 - onun üçün qat-qat ağır gələcək - həm fiziki (əsgər itkiləri), həm də maddi planda. Bahalaşma ilə bağlı verilən anons bunun yalnız xəbərçisidir.**

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

**Avropa İnvestisiya Bankı (European Investment Bank, EIB) Azərbaycan qazını Avropaya daşıyacaq Trans Adriatik Qaz Kəmərinin(TAP) çəkilişini maliyyələşdirmək barədə gələn ilin fevralında qərar verəcək. Halbuki Bankın layihəyə 1,5 milyard avro ayırmaq barədə qərarının dekabrın 12-də keçirilən iclasında alacağı gözlənilirdi.**




# Almaniya TAP-a qarşı - iddia

## Ekspertlər bu qərarın layihənin icrasına təsirinin olmayacağını deyirlər

Bu məsələyə münasibətini bildirən SOCAR-ın sərmayələr və marketinq üzrə vitse-prezidenti Elşad Nəsirov bildirib ki, bu addım layihənin icrasına hələlik təsir etməyəcək: "Hələlik bu qərar layihənin icrasına təsir etmir. TAP layihəsi 2020-ci ilin əvvəlində istismara veriləcək".

Vitse-prezident onu da qeyd edib ki, EIB bu qərarı bəzi amillərin təzyiqi altında atıb. Bu amillərdən birinci isə iclas ərəfəsində bank rəhbərliyinə edilən təzyiqlərdir. Belə ki, iclasla eyni gündə Fransa prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Parisdə qlobal iqlim dəyişiklikləri ilə bağlı sammit keçirilib. Ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar tədbirlər ərəfəsində nüfuzlu media orqanlarında bankın alternativ deyil, ənənəvi eneji mənbələrindən istifadəni genişləndirən layihəni maliyyələşdirmək qərarı verməsinə qarşı çıxıblar. Bundan əlavə, Azərbaycanda insan haqlarının pozulduğunu iddia edən beynəlxalq QHT təmsilçiləri EİB-i maliyyələşmədən imtina etməyə çağırıblar.

Qeyd edək ki, TAP layihəsi Avropa Birliyinin enerji təhlükəsizliyi və enerji mənbələrinin diversifikasiyasına görə strateji məqsədlərində əsas rolu oynayır. Təbii qazın Azərbaycandan Avropa bazarlarına ixracının ən qısa və birbaşa marşrutunu TAP təşkil edir. Buna görə də Avropa Birliyinin iqlim və enerji məsələləri üzrə rəsmiləri bankı krediti ayırmağa çağırıb. Bildiriblər ki, layihəni dəstəkləyənlərə "təhlükəsiz adekvat maliyyə" lazımdır, onlar intensiv kapitalın gərəkdiyi tikinti mərhələsinə daxil olurlar.

*EİB-in qərarını ertələməsi həqiqətənmi TAP-ın qrafikinə təsir göstərməyəcək? Bankın, ümumiyyətlə, maliyyələşmədən imtina etməsi mümkündürmü?*

Sualları cavablandıran **Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının rəhbəri Mirvari Qəhrəmanlı** TAP-ın çəkilişinin hər bir halda vaxtında başa çatacağı qənaətindədir: "Bu layihə Avropa Birliyi üçün çox böyük siyasi-iqtisadi əhəmiyyət kəsb edir. Avropanın Rusiyanın qaz asılılığını azaldır. Layihə üçün artıq kifayət qədər yüksək həcmdə kreditlər, maliyyə ayrılıb, işlərin xeyli hissəsi icra olunub. Buna görə də onun dayanacağını, yaxud ləngiyəcəyini düşünmürəm".

İnsan haqları məsələsinə gəlincə, xanım hüquq müdafiəçisi deyir ki, beynəlxalq maliyyə qurumları bir layihəylə bağlı qərar verərkən yalnız onun icra olunduğu ərazidəki insan haqları məsələlərini nəzərə alırlar: "Yəni əgər Avropa İnvestisiya Bankı müəyyənləşdirsə ki, TAP onun keçdiyi ərazilərdə yaşayan insanların haqlarının əvvəlkindən pis vəziyyətə düşməsinə gətirib çıxarır, onda maliyyələşməni ayırmaya bilər. Burada söhbət kəmərin keçdiyi ərazidəki insanların birbaşa kəmərin təsiri ilə pozula bilən hüquqlarından gedir. Azərbaycandakı vəziyyətin bura aidiyyəti yoxdur".

**Ekoloji problemlərə gəlincə, M.Qəhrəmanlının dediyinə görə, hər hansı problem yarandıqda belə kəmərin tamamən dayanmasından deyil, təsirlərin minimuma endirilməsindən, yaxud marşrutda dəyişiklikdən söhbət gedə bilər:** "Məsələn, Gürcüstanda Bakı-Tiflis-Ceyhan Borjomi dərəsindən keçirdi, gürcü ekoloqlar etiraz etdilər, fikirlərini əsaslandırdılar. Yalnız bundan sonra marşrutda dəyişiklik edildi. Yəni ekoloji əsas gətirəndə də mütləq ciddi izahat verilməlidir. Alternativ enerji əvəzinə qaz kəmərinin maliyyələşdirilməsi iddiası ciddi arqument ola bilməz. Alternativ enerjinin qazın yerini tutması üçün onilliklər lazımdır. O dövrdə Avropa nədən istifadə etməlidir?"

**Təşkilat rəhbəri yalnız TAP deyil, Cənub Qaz Dəhlizi layihəsinin bütünlüklə və qrafikə uyğun həyata keçiriləcəyinə əmindir:** "Biliriniz, biznes və siyasi maraqlar olan yerdə digər maraqlar, hüquqlar sonrakı yerlərdə gəlir. Biz 17 ildir bunu görə-görə gəlirik".

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban** hesab edir ki, bankın qərarı ertələməsinə baxmayaraq, layihənin icrasında hər hansı ləngimə olmayacaq: "Xarici mətbuatın Bank rəhbərliyindəki mənbəyə istinadən yazdığına görə, qərarın qəbulunun təxirə salınmasının əsas səbəbi Almaniya hökumətinin layihə ilə bağlı iradları olub. Bu iradların bir qismi kəmərin İtaliya ərazisindəki hissəsinin yaratdığı ekoloji problemlərin tam aradan qaldırılmaması ilə bağlıdır. Digər irad isə Azərbaycanda layihədən faydalananın dövlət şirkəti olduğu, dövlətin ərazisində isə insan haqlarına riayət olunmaması iddiasıdır. Lakin düşünürəm ki, bunlar o qədər də inandırıcı deyil. Çünki İtaliya ərazisindəki ekoloji problemlər məsələsi bu ilin əvvəli üçün daha kəskin qoyulurdu. Lakin ilin əvvəlindən bəri Cənub Qaz Dəhlizinə milyardlarla dollar vəsait ayrılması barədə beynəlxalq maliyyə qurumlarının qərarları oldu. İndi isə ilin sonudur, İtaliyadakı problemlər demək olar ki, tamamən həllini tapıb, müəkirələr də səngiyib. Bütün bunları nəzərə alaraq, düşünürəm ki, Bankın Direktorlar Şurasının qərarı texniki baxımdan vaxt çatdırmadığı üçün təxirə salması barədə deyilənlər daha doğrudur".

**İ.Şabanın fikrincə, hətta Avropa İnvestisiya Bankı vəsait ayırmasa belə, Azərbaycanın TAP-dakı 20 faiz payının qalan hissəsini - təxminən 450 milyon dolları maliyyələşdirmək üçün yerli imkanı olacaq.**

❑ **Dünya SAKİT**

---

# Ədalətsiz vasitəçilərdən necə qurtulmalı?



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**"ABŞ heç vaxt ədalətli vasitəçi olmayıb, olmayacaq da". Bu sözlər İran prezidenti Həsən Ruhaniyə məxsusdur. Ruhani Ağ Ev başçısı Donald Trampın Qüds qərarına münasibət bildirərkən belə deyib. Təbii ki, bununla o, İsrail-Fələstin məsələsində ABŞ-ın artıq qərəzsiz arbitr olmadığına diqqət çəkmək istəyib.**

Onunla razılaşmamaq mümkünsüzdür. İş ondadır ki, heç Dağlıq Qarabağ məsələsində də ABŞ-ın ədaləti həmsədr dövlət kimi "fontan" vurmur: Amerika Krım, Donbas separatçılarına sanksiyalar tətbiq etdiyi halda, Qarabağda yuva salmış separatçı-terrorçulara əksinə, illərdir qucaq açır, hər il onlara maliyyə yardımı ayırır, Azərbaycan həbsxanasının darıxdığı "Kreml tulası" Bako Saakyanın hətta ABŞ Konqresində görüşlər keçirib, orada "DQR bayrağı" adına öz əski parçasını asmasına göz yumur.

O üzdən Ruhaniyə necə haqq verməyəsən? Hərçənd, İranın özü də Qarabağ məsələsində illərdir ədalətli mövqe sərgiləmir. İran qardaş Türkiyə, Pakistandan fərqli olaraq cənub qonşumuz daima işğalçı Ermənistanın yanındadır, onun üçün ən çətin dönəmdə nəfəslik rolunda olub və indi də xilaskar qismindədir, təcavüzkarın başını sığallayır, onunla "çaşka-loşka" kimidir. Ruhaninin özü isə yeganə böyük müsəlman dövlətinin başçısıdır ki, işğalçı Ermənistana səfər edib. Amma Tehran "işğalçı İsraili" on illərdir yer üzündən silməyə çalışır...

*****

Digər iki vasitəçi dövlətin - Rusiya və Fransanın Qarabağ məsələsində "ədaləti" də hamıya bəlli. Rusiya işğalçının əsas siyasi-hərbi havadarı və torpaqlarımızın işğal ortağı, Fransa isə işğalçı Ermənistanı özünə "kiçik bacı" sayan gizli xristian havadarı qismindədir. Üstəgəl, Rusiya da, Fransa da saxta erməni "soyqırımı" rəsmən tanımış dövlətlərdir (2015-ci ildə uydurma iddianın 100-cü ildönümü mərasiminə qatılmaq üçün İrəvana gələn 3 prezidentdən ikisi Rusiya və Fransa liderləri idi - Vladimir Putin və Fransua Olland).

O zaman bəs, ədalətli vasitəçini biz harda axtaraq, əgər bəxtimizə düşən vasitəçilər vasitəçilikdən başqa hər şeylə məşğuldurlarsa və vasitəçilikdə də beynəlxalq hüququ deyil, öncə öz milli maraqlarını güdürlərsə?

Sözsüz ki, BMT-nin urvatsız edildiyi hazırkı qəliz zamanda sula cavab tapmaq asan deyil. Yalnız onu ərz eləmək qalır ki, ədalətli münsif axtarmaqdansa, ən yaxşısı kimsənin aracılığına, vasitəçiliyinə ehtiyac duymamaqdır. Bir növ girov duruma düşməməkdir.

Ədalətli vasitəçi həsrəti çəkməkdənsə, yaxşısı elə özün vasitəçi olmaqdır. Ən idealı bu ola bilər. Ona görə ki, vasitəçilik adətən zəif ölkələrə sırınır, güclü dövlətlər isə həmişə vasitəçi kimi özlərini təqdim edirlər.

Məntiq də bunu deyir ki, əgər biz vasitəçi istəmiriksə, onda gərək Dağlıq Qarabağ kimi problemimiz olmaya. Qısası, altda qalanlardan olmayaq! Ayaqda olaq ki, ayaq altında qalmayaq!

Bundan ötrü də gərək güclü dövlət, güclü cəmiyyət qurasan ki, dünyada sayılıb seçilə biləsən, heç kim sənin ölkənin daxilində bu kimi konfliktlər yaradıb, vasitəçi adı ilə burnunu iç işlərinə soxmasın. Və ya Rusiyanın XİN başçısı Sergey Lavrov kimi "Qarabağ Azərbaycanın daxili məsələsi deyil" kimi həyasız bəyanatlar verə bilməsin.

Bax, onda vasitəçiyə ehtiyac duymayacağıq. Əksinə, bəlkə də özümüz kiminsə probleminin həlli üçün vasitəçilik edəcəyik. Bəs, vasitəçisiz keçinən güclü dövlətə necə çevrilməli?

"Resept" əslində deyildi: güclü dövlət, güclü cəmiyyət, bir də güclü mətbuat (IV hakimiyyət)...

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin "sağ əli" hesab olunan Məharət Mustafayevdən şikayət edən İH-nin sektor müdiri olmuş Gülnar Günəşlinin adından redaksiyamızın elektron poçtuna məktub daxil olub. gulnar.guneshli1@gmail.com ünvanından göndərilən məktubda deyilir:**

# Gəncənin icra başçısının müavinini ittiham edən qadından yeni müraciət

## Gülnar Günəşli adından redaksiyamıza anlaşılmaz məktub göndərilib

***"Hörmətli redaksiya!***

Bu il noyabrın 6-da Musavat.com saytında, 7-də isə "Yeni Müsavat" qəzetində mənim "açıqlamam" əsasında "Gəncə İcra Hakimiyyətinin sektor müdirindən başçıya və müavininə şok ittiham" sərlövhəli məqalə dərc olunub. Məqalədə mənim əsas fikirlərimə və iradlarıma yer verilmədən diqqət yalnız Məharət Mustafayevin mənə ailə qurmaq təklifi etməsi barədə şəxsimə aid olmayan açıqlamalara yönəldilib. Halbuki, mənim fikirlərim tamam başqa kontekstə söykənirdi. Müxbir gənc xanımın gələcək həyatını düşünmədən, ona psixoloji travma vurula biləcəyinin fərqinə varmadan daha çox oxucu toplamaq məqsədi güdərək məsələnin mahiyyətini bilərəkdən təhrif edib. Mən müxbirə M.Mustafayevin mənə sevgi mesajları göndərdiyini, sevgisini etiraf etdiyini və evlənmək təklifi irəli sürdüyünü deməmişəm. Ümumiyyətlə, adımın mətbuat səhifələrində bu kon-



tekstdə hallandırılmasını istəmirəm. Belə hallar jurnalistə oxucu toplamağa şərait yaradıbsa, mənim psixoloji cəhətdən sarsıntı yaşamağıma səbəb olub. İnsan həyatı ilə oynamaq, məsələnin mahiyyətini dəyişib "sevgi hekayəsi" yaratmaq yaxşı davranış deyil. Bir daha qeyd edirəm ki, mən müxbirə sevgi, sevgi mesajları və evlilik xüsusunda heç nə deməmişəm. Xahiş edirəm ki, kimsə mənim həyatımı öz peşəkar fəaliyyətində alətə çevirməsin.

Xahiş edirəm ki, nəzərə alasınız!

***Gülnar Günəşli".***

***

Gülnar Günəşli adından redaksiyamıza daxil olan müraciətdə göstərilənlərin məsələnin mahiyyətindən yayınmaq cəhdi olduğunu, həqiqətin üzə çıxmasını önləmək məqsədi daşıdığı anlaşılır.

Bildiririk ki, Gülnar Günəşli redaksiyamıza 2 dəfə gəlib. Həmin vaxt onun yanında Gəncədən olan digər 2 şikayətçi də olub. İlk gəlişində Gülnar Günəşli Məharət Mustafayevin əməllərindən şikayətlənib. Bildirib ki, 2016-cı ildə Gəncə



Gülnar Günəşli

İH-nin Memarlıq və Şəhərsalma İdarəsinə rəis təyin olunan Məharət Mustafayevin əməlləri onu özünü öldürmək həddinə çatdırıb, bununla bağlı Gəncə Prokurorluğuna şikayət verib. Lakin Gəncə Prokurorluğu şikayətə baxmayıb. Bundan sonra Bakıya gələrək Fəxri Xiyabana gedib, orada üzərinə benzin tökərək özünü yandırmaq istəyib. Gülnar Günəşli redaksiya-





mıza intihara cəhd etməsi ilə bağlı Səbayel Rayon Prokurorluğunun qərarını da təqdim edib.

"Yeni Müsavat"ın 6 noyabr tarixli sayında G.Günəşlinin şikayəti əsasında "Gəncə İcra Hakimiyyətinin sektor müdirindən başçıya və müavininə şok ittiham"

http://musavat.com/news/gence-icra-hakimiyyetinin-sektor-mudirinden-basciya-ve-muavinine-sok-ittiham_480968.html

sərlövhəli yazı dərc olunub. Həmin yazıda isə G.Günəş-

linin redaksiyamıza təqdim etdiyi Səbayel rayon prokurorunun köməkçisi İsmayıl Rövşənovun qərarına istinad olunaraq yazılırdı.

**Sitat:**

"Hamilə olduğu müddətdə Məharət Mustafayevin ona qarşı münasibətinin çox yaxşı olduğunu, hətta ona qızım deyə müraciət etdiyini, M.Mustafayevdən rəhbər kimi heç bir





narazılığının olmadığını bildirmişdir. Lakin övladı dünyaya gələndən sonra Məharət Mustafayevin ona qarşı münasibətinin tamam dəyişdiyini və ona qarşı hisslərinin olduğunu, onu sevdiyini dediyini, telefon vasitəsilə çoxsaylı sevgi mesajları, sevgi musiqiləri göndərdiyini, onunla evlənmək istədiyini dediyini bildirmişdir. O, Məharət Mustafayevə dəfələrlə 2 azyaşlı övladının olduğunu, bir daha evlilik düşünmədiyini, atası yaşında olduğunu, aralarında 31 yaş fərq olduğunu və hərəkətlərinin yaşına yaraşmadığını dəfələrlə dediyini, bu hərəkətlərindən əl çəkməsini bildirib. 2016-cı ilin dekabr ayında işdən çıxmaqla bağlı ərizə yazdığını, lakin ərizəsini qəbul etmədikləri üçün 2017-ci ilin yanvarında təkrarən işdən çıxmaqla bağlı ərizə ilə müraciət etdiyini və mart ayınadək işə çıxmadığını bildirmişdir. Lakin buna baxmayaraq ona məvacib yazıldığını və 2017-ci ilin martında Məharət Mustafayevin onun mobil telefonuna zəng vuraraq bir daha onu narahat etməyəcəyini demiş, işə çıxmağını xahiş etmişdir. O da ailədə yeganə işləyən şəxs olduğu üçün və maddi vəziyyətinin çətin olması ilə əlaqədar yenidən işə çıxmışdır. Həmin ərəfədə icra başçısının sərəncamı ilə Memarlıq və Şəhərsalma İdarəsinin nəzdində Kommersiya sektoru yaradılmış və başçının əmri ilə o, sektor müdiri vəzifəsinə təyin olunmuş, təxminən 1 ay Məharət Mustafayev onu narahat etməmişdir. Lakin sonradan yenə də ona təsir göstərməyə başlamış, lakin sonuncunun təkliflərini yenə də rədd etdiyi üçün və bu sırf işlə bağlı təzyiqlər göstərməyə, onu bu yolla əldə etməyə cəhd etmişdir. Belə ki, o, kommersiya sektoruna müdir təyin ediləndən sonra Məharət Mustafayevin təklifi ilə 6 nəfər işçini kommersiya sektoruna işə qəbul etmiş və həmin şəxsləri onun təklifi ilə işə dəvət etmişdir. Onun Məharət Mustafayevə "hə" cavabı verməməsi Məhərəti o dərəcədə qıcıqlandırmışdır ki, artıq səbəbsiz yerə onun işçilərini işdən çıxarıb. O, bunun səbəbini öyrənmək üçün İcra Hakimiyyətinə gedərək M.Mustafayevdən bunun səbəbini soruşduqda o, idarənin rəisi olduğunu, bütün işçiləri işdən çıxardığını, bir daha işə gəlməmələrini bildirmiş və göstərişinə əsasən icra hakimiyyətinin mühafizə polisi onu və Sahili idarədən çıxartmışdır".

**G.Günəşli demişdi ki, bundan sonra onun otağını möhürləyib, iş yerinə buraxmayıblar. Otaqdakı əşyalarını götürməsinə çox ciddi əngəllər olub:** "İcra Hakimiyyətinə iş otağımdan bir sıra sənədlər götürmək üçün getdikdə otağın qapısının möhürləndiyini gördüm. İşçilərdən bunu kimin elədiyini soruşdum. Dedilər ki, M. Mustafayevin göstərişinə əsasən otağın qapısı möhürlənib. M.Mustafayevə yaxınlaşaraq bunun səbəbini soruşduqda dedi ki, başçının göstərişi ilə işdən azad olunmusan, bir daha idarəyə ayaq basma. Otağın açarı məndə idi və girib uşqlarımın fotolarını, şahmat turnirlərində qalib olduğumu təsdiqləyən diplomlarımı, YAP-ın aktiv üzvü olduğumu təsdiqləyən digər sənədləri götürmək istəyirdim ki, M.Mustafayev də ardımca atıldı. Masanın üzərində nə vardı əli ilə vurub yerə tökdü. Barəmdə təhqiramiz ifadələr işlətməklə mühafizə polisini çağırdı və məni binadan çıxartdırdı. Onun təzyiqləri bundan sonra da davam etdi. Mənə zəng edib deyirdilər ki, 1 qardaşın var, onun başına oyun açacağıq. Məcbur olub 2 övladımı da götürərək avqustun 8-də Bakıya gəldim. Ombudsman Aparatına, Prezident Administrasiyasına başıma gətirilən müsibətlər haqda şikayət ərizələri yazdım. Avqustun 11-də Bakıda özümü yandırmağa cəhd etdikdən az sonra icra başçısı zəng vuraraq dedi ki, məni işdən çıxarmayıb, geri qayıdıb işimə davam edə bilərəm".

**G.Günəşli demişdi ki, başçının sözlərinə inanıb və Gəncəyə gedərək başçının qəbuluna yollanıb:** "Başçının qəbulunda olan zaman əl çantamı qəbul otağında qoymuşdum. Çıxanda gördüm ki, çantama müdaxilə ediblər, mobil telefonumu götürüb suya salıblar yararsız hala gətiriblər".

G.Günəşlinin sözlərinə görə başçının qəbulunda olandan sonra da vəziyyət yaxşıya doğru dəyişməyib, əksinə daha böyük haqsızlıqlar, təzyiqlərlə üzləşib, üzünə 2 şəxsi qoyublar, onun və işçisi Nəriman Şahmari barəsində qondarma iş başlamağa cəhd olub.

G.Günəşlinin şikayəti əsasında hazırlanan yazı dərc olunandan sonra o növbəti dəfə redaksiyamıza gələrək təşəkkürünü bildirmiş, qeyd etmişdi ki, məsələ ictimailəşəndən sonra Baş Prokurorluq nəzarətə götürüb və obyektiv araşdırma aparılmasına inamını ifadə etmişdi. Onun redaksiyamızın əməkdaşına verdiyi müsahibəsinin səs yazısı qalır və fikirləri olduğu kimi dərc edilib.

G.Günəşlinin şikayəti dərc olunandan 1 aydan artıq keçəndən sonra xanım zərərçəkənin belə bir müraciətə müəlliflik etdiyinə, sözlərini hansısa səbəbdən geri götürdüyünə və özünü qorumaq üçün redaksiyaya böhtan atmasına təəssüflənirik.

**Hesab edirik ki, G.Günəşlinin adından yayılan müraciət onun iradəsinə zidd olaraq hazırlanıb və redaksiyamıza göndərilib.**

❑ **E.MƏMMƏDƏLİYEV**


Rizvan Cəfərov
saxlanılan şəxs

# Bakıda "polkovnik" tutulub

**Dələduzluq yolu ilə insanları aldadan, bununla da zərərçəkənlərin külli miqdarda pulunu mənimsəyən şəxsin tutulması istiqamətində polis əməkdaşları tərəfindən növbəti əməliyyat tədbiri həyata keçirib.**

DİN-dən APA-ya verilən məlumata görə, Xətai Rayon Polis İdarəsinə müraciət edən paytaxt sakini Tofiq Qasımov bildirib ki, avqustun 6-da özünü hüquq-mühafizə orqanlarının polkovnik rütbəli zabiti kimi təqdim edən, əvvəldən tanıdığı Rizvan adlı şəxs tərəfindən dələduzluq yolu ilə aldadılaraq 11000 manat pulu mənimsənilib.

Şikayətçi ərizəsində həmin şəxsin pulu ondan oğlunu universitetlərdən birinin hüquq fakültəsinə düzəldəcəyi adı ilə aldığını qeyd edib.

Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində dələduzluq etməkdə şübhəli bilinən, əvvəllər Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə dəfələrlə məhkum olunan Rizvan Cəfərov saxlanılıb. Saxlanılan zaman onun əynində Ədliyyə Nazirliyinin Penitensiar xidmətin əməkdaşı olmadığı halda həmin orqanın xüsusi geyim forması olub.

Qeyd edilən faktla bağlı Xətai Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar aparılır.

**Polis əməkdaşları dələduzluq etməkdə şübhəli bilinən Rizvan Cəfərovun digər analoji cinayətlərdə iştirak etdiyini də istisna etmir. Onun dələduzluq və ya digər qanunsuz əməllərindən zərərçəkən başqa şəxslər varsa, bu barədə Daxili işlər Nazirliyinin "102" Zəng Mərkəzinə və ya Xətai Rayon Polis İdarəsinə məlumat verə bilərlər.**

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

# Deputatın mandatdan məhrum edilməsini nəzərdə tutan qanun qəbul olundu

## Milli Məclis ordu, seçki və tikinti məsələləri ilə bağlı yeni qanun layihələrini də qəbul etdi

**Dekabrın 15-də Milli Məclisin növbəti plenar iclası spiker Oqtay Əsədovun sədrliyi ilə keçirildi. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası qanununun layihəsi ikinci oxunuşda müzakirəsi isə daha geniş müzakirəyə səbəb oldu. Birinci vitse-spiker Ziyafət Əsgərov sənədlə bağlı məlumat verdi.**



**Deputat Fazil Mustafa** həmkarı Qüdrət Həsənquliyevin ilk müzakirələrdə səsləndirdiyi təklifi müdafiə etdi. Silahlı qüvvələrin fəaliyyətinə nəzarət hissəsində Milli Məclislə bağlı əlavə edilməsini zəruri saydı: "Bunu deyəndə bəziləri elə bilir ki, biz ABŞ Konqresi, ya Bolqarıstan parlamenti üçün səlahiyyət istəyirik. Deyək ki, prezident tərəfindən təqdimat verilir, Milli Məclisin Silahlı Qüvvələrin real vəziyyəti ilə bağlı məlumat almaq imkanı olmalıdır ki, arxayınçılıqla razılıq verə bilsin".

**F.Mustafa nəzarətin yalnız işin xeyrinə olduğunu deyib digər nümunələr çəkdi:** "Məsələn, Penitensiar Xidmətdəki vəziyyətə baxın. Dünən də bir məhbus ölüb. Bundan əvvəl məhbuslar həbsdən qaçıb. Nəzarətdən kənarda qalanda bu məsələyə hər hansı müdaxilə etmək mümkün olmur. Hətta ədliyyə nazirinin özü də çıxışında deyir ki, burada ciddi nöqsanlar var, ortadan qaldırılmalıdır".

**Deputat Zahid Oruc** bildirdi ki, qanun layihəsi ilə bağlı mediada bəzi yanlışlıqlar gedib: "Guya parlamentdə Silahlı Qüvvələr haqqında qanun ona görə qəbul olunur ki, guya orduya daxili proseslərə müdaxilə səlahiyyəti verilir. Amma əslində bu, belə deyil. 90-cı illərdə ordudan daxili siyasətdə istifadə edənlər bu gün hakimiyyətə qarşı kampaniyada bu arqumentdən istifadə etməyə çalışırlar. Amma əslində orduya belə bir səlahiyyət verilməsindən söhbət gedə bilməz".

**Deputat Qüdrət Həsənquliyev** isə təəssüflə qeyd etdi ki, keçən iclasda konstitusiyaya əsaslanan təkliflər səsləndirsə də, həmin təkliflər ikinci oxunuşda nəzərə alınmayıb. Rusiya nümunəsini gətirən Q.Həsənquliyev dedi ki, Dövlət Dumasındakı 700-dən artıq təkliflərdən 500-ü nəzərə alınıb. "Mən hələ Avropa nümunəsini gətirmirəm, Rusiyadan bəhs edirəm". Q.Həsənquliyev ordudan daxili siyasətdə istifadə ilə bağlı narahatlığını da ifadə etdi: "Burada daxili sabitlik ifadəsini işlətmək düzgün deyil. Onda belə çıxır ki, küçə yürüşləri, mitinqlərin qarşısını almaq üçün hökumət ordudan istifadə edə bilər. Bu, yolverilməzdir. Orada yazılmalıdır ki, iğtişaşlar zamanı istifadə oluna bilər". Deputat daha sonra başqa məqama diqqət çəkdi: "Konstitusiya quruluşunun dəyişdirilməsi hər zaman cinayət sayılmır ki. Dövlətlər idarəetmə quruluşlarına görə fərqlənir. İstənilən vətəndaş bu barədə təşəbbüslə çıxış edə bilər. Ona görə də konstitusion quruluşun zorakılıqla dəyişdirilməsindən söhbət getməlidir. Məsələn, kimsə parlamentli üsul-idarəçiliyə keçilməsini təklif edirsə, ona qarşı ordudan istifadə olunmamalıdır ki".

Deputat konstitusiyaya zidd qərar və əmrlərin icra olunmaması barədə qanuna əlavələrin edilməsini də zəruri saydı və Türkiyədəki 15 iyul çevriliş cəhdini xatırlatdı. Əlavə etdi ki, Milli Məclisin Silahlı Qüvvələrə nəzarəti mütləq təmin olunmalıdır. Q.Həsənquliyev medianın ordudakı problemləri qabartmasını milli və dövlət təhlükəsizliyimizin əleyhinə olması barədə yanaşmanı da qəbul etmədiyini vurğuladı: "Ordudakı problemlər deyilməyəndə, yazılmayanda bunun nəticələri daha ağır olur. İmkan vermək lazımdır ki, jurnalistlərin əsgər və zabitlərlə təmasları olsun. Orduda "Açıq qapı" günlərinin keçirilməsi təqdirolunandır. Həmçinin biz ictimai nəzarət haqqında qanun da qəbul etmişik. Bu qanunda ictimai nəzarətlə bağlı məqamın olmamasını mən başa düşə bilmirəm. Ümid edirəm ki, üçüncü oxunuşda olacaq".

**Deputat Azay Quliyev** həmkarı Qüdrət Həsənquliyevin təkliflərinə diqqətlə yanaşmağı zəruri saydı: "Xüsusilə konstitusiya quruluşunun zorakı yolla dəyişdirilməsi barədə qanuna əlavə olsa, daha yaxşı olar". Deputat Silahlı Qüvvələrdə siyasi partiyalar, həmkarlar ittifaqları və digər qurumların yaradılması barədə müddəanı normal saydı. Bununla bağlı ictimaiyyətə daha aydın şərh verilməsini zəruri saydı.

**A.Quliyev orduya ictimai nəzarətlə bağlı məsələyə diqqətlə yanaşmağı zəruri saydı:** "Ədliyyə Nazirliyində İctimai Şura var. Yaxşı olardı ki, qadağan olunmuş materiallara məhdudiyyət tətbiq olmaqla ictimai nəzarət tətbiq olunsun, bu, işin xeyrinə olar".

**Deputat Naqif Həmzəyev** müddətdən artıq şəxslərin orduya qəbulu zamanı ciddi nəzarətin həyata keçirilməsini zəruri saydı. Həmçinin mətbəx işlərinə cəlb olunan xanımların işə götürülməsi zamanı onların hərbi sirləri nə dərəcədə qoruyacaqlarına diqqət yetirilməsini təklif etdi.

**Deputat Siyavuş Novruzov** isə dedi ki, heç bir qanun Quran ayəsi deyil və istənilən zaman dəyişdirilə bilər. İctimai nəzarətlə bağlı həmkarlarının dediklərinə münasibət bildirən S.Novruzov bildirdi ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Ali Baş Komandan qarşısında hesabat verir. Ona görə də hansısa QHT-nin nəzarət həyata keçirməsini düzgün saymadı.

**S.Novruzov orduya mülki şəxsin təyin olunması barədə təkliflərə qarşı çıxdı:** "Bir dəfə bir riyaziyyatçı gətirib qoydular, gördük də ölkənin başına nə oyun gətirdi. Ərazilərimiz işğal olundu. İndi burda adını çəkmək istəmirəm, bu məclisə layiq deyil. Orduya peşəkar rəhbərlik etməlidir. Biz öz ərazilərimizi işğaldan azad etməyincə, orduya mülki şəxs rəhbərlik edə bilməz. Ordunun başında peşəkar hərbçi dayanmalıdır".

**Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev** söz alaraq bəzi fikirlərini çatdırdı: "Ordu haqqında fikir bildirəndə və yaxud mətbuatda bu barədə yazı yazanda nəzərə alınmalıdır ki, həssas məsələyə toxunulur. Öncə qeyd etməliyəm ki, biz müharibə şəraitindəyik. Hər bir neqativ hal düşmən tərəfindən bizə qarşı istifadə olunur". General bu məsələdə medianı diqqətli olmağa çağırdı. K.Vəliyev deputat Qüdrət Həsənquliyevin ordu ilə bağlı mediada yayılan fikirlərinə də toxundu: "Deputat bir müddət öncə Tərtərdə problem olduğunu demişdi, mətbuat da bunu yazmışdı. Mən dərhal Qüdrət Həsənquliyevlə əlaqə saxladım. O, bu cür məlumatın getməsinə təəccüb etdi. Bildirdi ki, hərbi hissə ilə bağlı dediyi fikirlər bir müddət əvvəl kimdənsə eşitdiyi sözlərdir. Hörmətli deputatlar və media nümayəndələri bu məsələdə diqqətli olmalıdırlar".

**Milli Məclisin sədri Oqtay Əsədov** generala xitabən bəzi qeydlərini bölüşdü. Dedi ki, deputat Qüdrət Həsənquliyevin fikirlər bəzi saytlarda kontekstdən çıxarılıb: "Milli Məclisin hər bir üzvünün orduya böyük hörməti var. Burada çıxışlar da olur, tənqidlər də olur. Biz araşdıraq, görək bu çıxışı başqa cür təqdim edən kimlərdir. Həmin media orqanları nə Milli Məclisdə, nə də Müdafiə Nazirliyində akkreditasiyadan keçib. Onlar müxtəlif saytlardır ki, bu cür şeylər yazırlar. Amma belə məsələləri çox da ürəyinizə yaxın buraxmayın. Biz Azərbaycan ordusunun həmişə güclənməsini istəmişik, həmişə də dəstəkləyəcəyik". Deputatlar spikerin qeydlərini alqışlarla qarşıladılar.

**Birinci vitse-spiker Ziyafət Əsgərov** "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası qanununun layihəsi barədə danışarkən ordunun daxildəki siyasi proseslərə müdaxilə imkanlarının olacağı barədə fikirləri təkzib etdi: "Silahlı Qüvvələr təkcə ordudan ibarət deyil, ordunun daxili siyasətə aidiyyəti yoxdur. Daxildəki hansısa məsələlərə Daxili Qoşunlar məşğul olacaq, ordu yox. Eşitdiniz, hörmətli jurnalistlər, nə var, onu yazın!"

Bundan sonra qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edildi.

Seçki Məcəlləsinə dəyişiklik də uzun müzakirələrə səbəb oldu. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli layihə barədə məlumat verdi. Bildirdi ki, Seçki Məcəlləsinə 55 dəyişiklik təklif edilir. Dəyişikliyə əsasən, Məcəlləyə 6-cı (Bu Konstitusiyanın 93-cü maddəsinin III hissəsinin (Azərbaycan Respublikası Milli Məclisinin deputatları səsvermə hüququnu şəxsən həyata keçirirlər) tələbini pozduqda), 7-ci (deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda) bəndlər də əlavə edilib. Bu bəndlərdə göstərilən əsaslar olduqda, deputatın mandatdan məhrum edilməsi haqqında qərarı da MSK qəbul edəcək. MSK-nın qərarından müvafiq məhkəməyə şikayət verilə bilər. Mandatdan məhrum edilmə ilə bağlı qərara MSK tərəfindən baxılmasına gəldikdə, Ə.Hüseynli bildirdi ki, MSK-nın millət vəkilini mandatdan məhrum etmək funksiyası mövcuddur.

**Deputat Siyavuş Novruzov** Seçki Məcəlləsinə edilən dəyişiklikləri təqdir edərək bildirdi ki, bəzi şəxslər növbədənkənar seçkinin keçirilməsi ilə əlaqədar vətəndaşları çaşdırır: "ANS-in keçmiş əməkdaşı, hazırda Amerikada yaşayan Sevinc Osmanqızı şayiə yayıb ki, Azərbaycanda mart ayının ortalarında prezident seçkiləri keçiriləcək və Milli Məclis bu məsələni müzakirəyə çıxarır. Bu, sırf təxribatdır və o, təxribatla məşğuldur. Qanunda göstərilib ki, prezident seçkiləri fəaliyyətdə olan prezidentin səlahiyyət müddəti başa çatdıqdan sonra, oktyabr ayının üçüncü həftəsinin üçüncü günündə keçirilir. Burada hər hansı fövqəladə hal, hadisə baş verməyib. Götürün Konstitusiyanı, Seçki Məcəlləsini götürün, oxuyun. Hər fikirdən yeni fikir çıxarırlar və biz də bütün fəaliyyətimizi təkzib verməyə həsr edirik. Heç kəsin hüququ çatmır ki, prezidentin hüququnu məhdudlaşdırsın".

**Deputat Tahir Kərimli** deputatın mandatdan məhrum edilməsi məsələsinin MSK-da baxılmasına etiraz etmədiyini desə də, qeydlərini də etdi: "Mahiyyət üzrə qərar qəbul olunmasını MSK necə təftiş edəcək? Ümumiyyətlə, onun buna səlahiyyəti varmı?" Deputat dedi ki, bu, sui-istifadələrə yol verə bilər: "Biz aydınlaşdırmalıyıq, hansı etik qaydaya görə cəzalandırıla bilərik? Axı, bizim Konstitusiyamızın 91-ci maddəsində birbaşa göstərilir k, deputat Milli Məclisdəki fəaliyyətinə, səsverməyə və söylədiyi fikirlərə görə hər hansı bir məsuliyyətə cəlb oluna bilməz. Bəs, məsuliyyətə cəlb oluna bilməzsə, necə məsuliyyətə cəlb olunacaq?"

**Deputat Qüdrət Həsənquliyev** də bəzi müddəalara etiraz etdi: "Layihədə göstərilib ki, deputat başqasının əvəzindən səs verərsə və etik davranış qaydalarını pozarsa, Milli Məclis tərəfindən qərar qəbul olunur, MSK-ya göndərilir və MSK qərar qəbul edir. Əgər son sözü biz deyiriksə, MSK-nın təkrar qərar qəbul etməsinə nə ehtiyac var?"

**Spiker Oqtay Əsədov** dedi ki, 6 aydan sonra normativ hüquqi aktlar səsə qoyulacaq. Ondan sonra MM-in nizamnaməsinə uyğun dəyişikliklər olacaq.

**Deputat Vahid Əhmədov** Seçki Məcəlləsinə edilən dəyişiklikləri mütərəqqi adlandırdı. Mübahisə doğuran məsələlərdən biri kimi deputatın mandatdan məhrum edilməsini xatırlatdı: "İndiki dəyişikliklərdən görünür ki, millət vəkillərinin taleyi Milli Məclisə həvalə olunur. Yəni məsələyə İntizam Komissiyası baxacaq. Ancaq vaxtilə taleyimiz MSK-ya verilmişdi. İndi bizim taleyimiz öz əlimizdədir".

**Deputat Aydın Mirzəzadə** isə bildirdi ki, artıq Konstitusiyaya referendum yolu ilə edilmiş dəyişikliklər ətrafında mübahisə etməyin mənası yoxdur. O bildirdi ki, vaxtaşırı Azərbaycanda əhəmiyyətli hadisə ərəfəsində təxribat cəhdləri olur və bu dəfə də eyni hal baş verir: "Budəfəki cəhdləri provakasiya, Azərbaycanda çaxnaşma yaratmaq cəhdindən başqa bir şey deyil".

**Deputat Zahid Oruc** əvvəlcə təkliflərə sərt reaksiya verilməsinə reaksiya verdi: "Hər hansı təkliflərə reaksiya verilərkən çox tünd boyalardan istifadə olunmasını düzgün saymıram". Z.Oruc dedi ki, bu parlamentdə dövlətə hər hansı bir təhlükə yoxdur: "Burada ixtisaslaşmış şəxslərdən söhbət gedir. İntizam Komissiyası harda ixtisaslaşırlar?" Z.Oruc dedi ki, hətta Rusiyanın özündə mandatdan etik davranışa görə məhrum etmə nümunəsi yoxdur.

Spiker "Zahid Oruc, sən referendumda iştirak etmisən? Səs vermisən? Cəmiyyət də səs verib, bunu istəyib, biz də bununla bağlı qərar qəbul edirik. Hələ müəyyən düzəlişlərdən sonra bu sənəddən də narazılıq varsa, mənim sözüm yoxdur"-deyə, Z.Oruca reaksiya verdi.

Komitə sədri Əli Hüseynli isə dedi ki, səsverməyə görə millət vəkili mandatdan məhrum edilə bilməz. Amma etik davranış qaydalarını pozduğuna görə, millət vəkill mandatdan uzaqlaşdırıla bilər.

Bundan sonra deputatlar qanun layihənə səs verib qəbul etdilər.

Mülki Məcəlləyə bir mənzilin bir neçə şəxsə satılmasının qarşının alınması məqsədi ilə edilən dəyişikliklər zamanı da deputatlar aktivlik nümayiş etdirdilər.

"Azərbaycanda yüzlərlə insan var ki, 20-25 ildir özü kirayədə qalır, öz evində yaşaya bilmir, çünki orada qaçqın və məcburi köçkünlərimiz o evlərdə yaşayırlar". Bu fikirləri **deputat Fazil Mustafa** söylədi.

**Deputat Fuad Muradov** bir gün əvvəl Xətai rayonundan mənzil problemi ilə üzləşən 40 nəfər şikayətçinin parlamentin qarşısına gəldiyini söylədi. Bildirdi ki, 2014-cü ildə 153 mənzil bir neçə adama satıldığı üçün insanlar ağır durumla üzləşib. Ancaq F.Muradov bildirdi ki, yeni qanun artıq bir mənzilin bir neçə nəfərə satılmasını mümkünsüz edəcək.

**Bundan sonra dəyişikliklər qəbul edildi.**

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**




# "Lavrovun Azərbaycana səfir planı baş tutmayıb"

## **Qabil Hüseynli:** "Zuyevi səfir kimi Bakıya göndərmək planı məhz Dağlıq Qarabağla bağlı Lavrovun qurduğu oyunun tərkib hissəsidir"

**Noyabrın 27-də Rusiya prezidenti Vladimir Putin Vladimir Doroxinin Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalasa da, hələ səfir postu boş saxlanılır. Qeyd edək ki, daha əvvəl Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə komitəsinin Rusiya Xarici İşlər Nazirliyinin Kadrlar Departamentinin direktor müavini Georgi Zuyevin Rusiyanın Azərbaycandakı səfiri vəzifəsinə namizədliyini dəstəklədiyi barədə informasiya yayılıb. Ardından bəzi media orqanlarında Azərbaycan tərəfinin G.Zuyevin təyinatına aqreman vermədiyini və səbəbdən Zuyevin namizədliyinin arxa plana keçirilməli olduğunu yazıb. G.Zuyev xarici işlər naziri Sergey Lavrovun yaxın adamı və qatı ermənipərəst, anti-Azərbaycan mövqeyində olduğu bildirilir.**

Planının baş tutmadığını görən S.Lavrov isə bir neçə gün öncə keçirdiyi mətbuat konfransında Rusiyanın Azərbaycan hökumətindən Georgi Zuyev üçün aqreman istəmədiyini deyib.

Lakin boş olan səfir postuna kimin namizədliyinin olduğu, təyinatın nədən hələ də gerçəkləşdirilmədiyi barədə bir söz deməyib.

**Politoloq Qabil Hüseynli** isə "Yeni Müsavat"a bildirdi ki, səfir təyinatı məsələsində düyün yarandığını söyləmək üçün kifayət qədər əsaslar var: "Əvvəla, Sergey Lavrov açıq riyakarlıq edir. Çünki Zuyevin namizədliyi hələ Duma yay tətilinə getməzdən öncə orada müzakirəyə çıxarılıb qəbul edilmişdi. Sonra da bu barədə rəsmi informasiya Rusiya Xarici İşlər Nazirliyinin saytında yerləşdirilmişdi. Yəni bu Rusiya tərəfindən həll edilmiş məsələ idi. İndi bunu danmaq və "Rusiya böyük dövlətdir və heç kim onunla səfirini qəbul edə bilməz" kimi görüntü yaratmağa çalışmaq Lavrovun özünü gülünc duruma salır. Lavrov əslində bir diplomat kimi deməli idi ki, belə hallar diplomatiyada olur və dövlətlər arasında belə şeylərin baş verməsi mümkündür. Lakin Lavrov bunu özünə sığışdırmır və nümayiş etdirmək istəyir ki, guya belə bir şey olmayıb. Baş vermiş hadisənin dünyaya yayılmasının qarşısını almaq, özünün planının baş tutmadığı barədə birmənalı rəy yaranmasına mane olmaq üçün hər şeyi danır. Amma artıq gecikib. Rusiyanın ingilis dilli mətbuatı bu məsələni araşdırıb və məlumatı yayıb.

Yeni səfirin Azərbaycana göndərilməsinin isə gecikməsinə gəlincə, doğrudur Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirmişdi ki, gələn ilin yanvarın əvvəlində Rusiya Azərbaycana öz səfirini göndərəcək. Yəni Zaxarovanın dediyi vaxta hələ bir müddət qalıb. Amma mənim zənnimcə, səfir postuna namizədlərin razılaşdırılması məsələsində bir düyün meydana gəlib. Bu düyünün çözülməməsi məsələni ləngidir. Rusiya son zamanlar Dağlıq Qarabağla bağlı münasibətlərdə Ermənistanın işinə yaraya biləcək addımlar atır. Məsələn, Zuyevin timsalında ermənipərəst bir səfiri Azərbaycana göndərmək planı məhz Dağlıq Qarabağla bağlı Lavrovun qurduğu oyunun tərkib hissəsidir. Mən heç də istisna etmirəm ki, yenə də hansısa bir namizədi Azərbaycana təklif edə bilərlər və Bakı yenə də onun namizədliyi ilə bağlı haqlı olaraq etirazını bildirər. Yəni bu dəfə rəsmi yazılı şəkildə namizədi göndərmək yox, şifahi surətdə bir növü ilkin nəbz yoxlaması kimi ola bilər".

**Politoloq vurğuladı ki, hər bir halda Rusiya kimi böyük bir dövlətin belə həssas bir nöqtəni səfirsiz saxlaması kifayət qədər qeyri-adi və suallar doğuran məsələdir:** "Rusiyanın bu məsələdə qürur nümayiş etdirməsi, yuxarıdan aşağı ifadələrlə-"Azərbaycana səfir məsələsində tələsməyə ehtiyac yoxdur" kimi açıqlama ilə Azərbaycanın Zuyev məsələsində mövqeyinə adekvat təpki vermək istəyi sezilir. Əslində Azərbaycan kimi önəmli ölkəyə səfir göndərilməsi Rusiyaya ciddi şəkildə lazımdır. Bu məsələdə hansısa uydurmalara əl atılması Lavrovun əl altından apardığı anti-Azərbaycan siyasətinin bir növü ifşası ilə bağlı ola bilər. Böyük ehtimalla Lavrovun Azərbaycana səfir planı baş tutmayıb. Lavrovun Zuyevlə bağlı atdığı addımın boşa çıxması Rusiya hakimiyyətini, xüsusən də prezident Vladimir Putini daha diqqətli olmağa vadar edə və Azərbaycana səfir müəyyən etmək məsələsini Lavrovdan alıb başqalarına tapşırması ilə nəticələnə bilər. Ona görə də məsələ bir qədər uzana bilər".

❑ **Etibar SEYİDAĞA**

# İstanbul zirvəsi - müsəlmanlar növbəti "dünya imtahanı"ndan çıxa bildimi?

## İƏT-də liderlik Türkiyəyə keçdi; sammit Azərbaycan üçün də uğurlu hesab oluna bilər...

**Çərşənbə günü İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Qüds şəhərinə həsr olunmuş fövqəladə sammiti həftənin əsas hadisəsi oldu. Doğrudur, müsəlman ölkələri hamısı bu toplantıya qatılmadı. Xüsusən də bir sıra aparıcı ərəb ölkələrinin, o cümlədən Misir və Səudiyyə Ərəbistanı kimi İƏT daxilində aparıcı rolu olan ölkənin iştirak etməməsi, ya da aşağı səviyyədə təmsil olunması müəyyən mənada tədbirin əzəmətinə kölgə salsa da, ümumilikdə müsəlman ölkələri tərəfindən Qüds məsələsinə operativ və kəskin reaksiya baxımından diqqətəlayiq idi.**




Təbii ki, əsas diqqət İstanbul sammitinin yekun bəyanatı deyil, oradakı çıxışlar və liderlərin reaksiyası idi. Məsələ ondadır ki, uzun illər Fələstin məsələsini əllərində saxlayan ərəb ölkələri, xüsusən də Misir və son illərdə Səudiyyə Ərəbistanı həlledici məqamda özlərini göstərə bilmədi. Ərdoğanın şəxsən tək-tək müsəlman ölkələrinin dövlət başçılarına telefon açaraq İstanbula dəvət etməsi bir tərəfdən müsəlman dünyasının operativ şəkildə toplanıb qərar vermək imkanını, digər tərəfdən isə Türkiyənin gücünü ortaya qoydu. Səudiyyə Ərəbistanı və onun müttəfiqləri isə nəinki mövqelərini gizlədə bilmədilər, əksinə, sammitə qatılmamaqla əslində özlərini təcrid etdilər. Və faktiki olaraq prosesin liderliyini Türkiyəyə vermiş oldular.

Məlum olduğu kimi, ABŞ və İsrail məhz ər-Riyad vasitəsilə Fələstin münaqişəsinə yeni həll planı təklif edir. Səudiyyənin aparıcı rol alacağı bu plana əsasən Mahmud Abbasın Qüds qərarını tanıması və bunun əvəzində dövlətin elan edilməsi, yeni paytaxtın verilməsi və təbii ki, maddi dəstək veriləcək. Hələlik bu plan kompleks şəkildə açıqlanmasa da, həm Vaşinqton, həm Təl-Əvivdən verilən açıqlamalar, üstəlik keçən ay Abbasın təcili ər-Riyada kralla görüşə çağırılması və bu zaman mediaya ötürülən məlumatlar toparlandıqda ortaya plan olaraq çıxır.

Ancaq Trampın Qüds qərarı və Türkiyənin məlum reaksiyası Səudiyyə Ərəbistanını fakt qarşısında qoydu. Təbii ki, bu prosesdə Səudiyyə Ərəbistanının müsəlman ölkələrindən dəstək alması və Fələstin planını reallaşdırması çox çətin, hətta mümkünsüz olacaq. Üstəlik, liderlik roluna da ciddi zərbə dəydi. Ancaq Qərb mediası hələ də şahzadə Məhəmməd ibn Salmanın Qərbdə kampaniyasını aparır.

Maraqlı daha bir detal isə İstanbul sammitində Trampın ciddi şəkildə tənqid olunması idi. Türkiyə prezidenti açıq şəkildə Trampı tənqid etdi və bu çıxışına ABŞ-ın CNN telekanalı geniş yer ayırdı. Çatan bilgilərə görə, Ərdoğanın bu qədər açıq şəkildə Trampa "yüklənməsinin" arxasında həm də Amerika siyasi dairələrində hazırkı prezidentə qarşı qəzəbin də rolu var.

Daha bir mühüm məqam İstanbulda İƏT-in qərarlarının BMT-də müdafiə olunması ilə bağlı anlaşmanın əldə olunması idi. Bu, o deməkdir ki, İƏT-in məcburetmə mexanizmi olmasa da, təşkilatın qəbul etdiyi qərarların BMT səviyyəsində qəbul olunması və daha sonra BMT-nin bu qərarları icraya yönəltməyə vadar etməyə çalışacaq. Çünki bu günə qədər İƏT-in və BMT-nin özünün, o cümlədən Fələstin və Qüds mövzusu ilə bağlı qəbul etdiyi onlarla sənədin heç biri icra olunmayıb. Ancaq indi İstanbulda faktiki olaraq müsəlman ölkələri bu qərarları BMT-də də müdafiə etmək və icraya yönəltməklə bağlı birgə əməkdaşlıq haqqında razılaşdılar. Bu isə Azərbaycan üçün, daha dəqiqi Qarabağ münaqişəsi ilə bağlı faydalı ola bilər.

İstanbul sammitində ən çox diqqət cəlb edən məqamlardan biri də Azərbaycanın mövqeyi oldu. Azərbaycan prezidenti sammitdəki çıxışında bildirdi ki, ABŞ prezidentinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnaməsinə zidd olan Qüds şəhərinin İsrailin paytaxtı kimi tanınması və ABŞ səfirliyinin bu şəhərə köçürülməsi ilə bağlı qərarı narahatlıq yaradır. Sitat: "Bu qərar Fələstin-İsrail münaqişəsinin ədalətli və hərtərəfli nizama salınması işinə mənfi təsir edə, Yaxın Şərqdə təhlükəli fəsadlara gətirib çıxara bilər. Hesab edirik ki, Amerika Birləşmiş Ştatları bu qərara yenidən baxmalıdır. Azərbaycan ardıcıl olaraq Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə, Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında həllini dəstəkləyir".

Bundan başqa, çıxışında İ.Əliyev İstanbul sammitində müsəlman ölkələrinin siyasətini də tənqid edib. Sitat: "1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. İşğal olunmuş ərazilər tamamilə etnik təmizləməyə məruz qalmış və talan edilib. Ermənistan məscidlər və İslam abidələri daxil olmaqla bütün mədəni abidələri məhv edib. Bununla bərabər, Ermənistan müxtəlif müsəlman ölkələri ilə dostluq münasibətləri qurmaq istəyir. Bu, ən böyük riyakarlıqdır".

Qeyd edək ki, hər nə qədər müsəlman ölkələri ilə münasibətlərin isti olduğunu vurğulasaq da, bir sıra müsəlman ölkələri var ki, Azərbaycan məsələsində yumşaq desək, laqeyddir. Məsələn, bir çox hallarda İƏT sammitlərində Azərbaycanla bağlı qəbul olunan qərarlar daha sonra BMT-də həmin müsəlman ölkələri tərəfindən dəstək görmür. Bu ölkələr içərisində İraq, Livan, Misir, BƏƏ kimi ərəb dövlətləri, o cümlədən İran da var. Güman ki, Azərbaycan prezidenti həm də bu ölkələrə mesaj verdi.

Yeri gəlmişkən, İƏT sammitində iştirak məqsədi ilə İstanbulda səfərdə olan Fələstin dövlətinin prezidenti Mahmud Abbas İƏT Gənclər Forumunun sədri səfir Elşad İskəndərovla görüşüb. Bu barədə yayılan məlumatda deyilir ki, Fələstin dövlət başçısı Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə yaradılmış İƏT Gənclər Forumunun müsəlman ölkələri gəncliyinin inkişafı və həmrəyliyinə yönəlmiş fəaliyyətlərini təqdir etdiyini qeyd edib, eyni zamanda prezidenti İlham Əliyevin İƏT sammitində Qüdslə bağlı nümayiş etdirdiyi ədalətli və cəsarətli mövqeyini yüksək qitmətləndirdiyini bildirib.

Daha sonra Mahmud Abbas İƏT Gənclər Forumunun Qüds şəhərini 2018-ci il üçün "İslam Dünyası Gəncik Paytaxtı" elan etməsi haqda qərarına və eyni adlı proqramın icrası üçün gələn ilə nəzərdə tutulmuş tədbirlər proqramına görə öz təşəkkürünü bildirib.

Xatırladaq ki, 2018-ci il Qüds İslam dünyasının Gənclik Paytaxtı elan olunub. Bu proqramla bağlı İƏT Gənclər Forumu sədri Elşad İskəndərov Mahmud Abbasa geniş məlumat verib. Görüşün sonunda E. İskəndərov Azərbaycanın zəngin İslam irsini, bu irsə verilən dövlət qayğısını, həmçinin Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindəki İslam irsinə qarşı apardığı vandal siyasəti əks etdirən və İƏT Gənclər Forumu tərəfindən hazırlanmış "Azərbaycan - İslam Mədəniyyəti İncisi" adlı ensiklopedik kitabın xüsusi nüsxəsini Fələstin prezidentinə hədiyyə edib.

**Beləliklə, İstanbul sammiti böyük ölçüdə olmasa da, bir sıra tərəflərinə görə Azərbaycan üçün uğurlu hesab oluna bilər. Qeyri-ərəb ölkəsi olaraq və necə deyərlər, müsəlman ölkələri klubuna nisbətən gec qoşulsa da, Azərbaycan son illərdə bu təşkilat daxilində ciddi iş aparır. Bunun bir nümunəsi İƏT Gənclər Forumunun Azərbaycan və Türkiyənin təşəbbüsü ilə yaradılması və bu təşkilatın xətti ilə müsəlman aləmində gənclər arasında ciddi fəaliyyətlərin həyata keçirilməsidir. Burada həmçinin 57 ölkədən ibarət BMT-dən sonra ən böyük beynəlxalq təşkilat daxilində aktiv olmaq, bu ölkələrin dəstəyini təmin etmək, eləcə də Qarabağ münaqişəsinin həllində siyasi dəstək almaq kimi prioritet siyasi mövzularla yanaşı, müsəlman ölkələri ilə iqtisadi əlaqələrin qurulması, ərəb sərmayəsinin cəlb olunması, enerji və nəqliyyat layihələrinin reallaşdırılması kimi iqtisadi səbəblər də var.**

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

# Oqtay Əsədovun mobil telefon iradı, yoxsa yasağı...

## Milli Məclisdə telefon qadağası götürülübmü?

**Milli Məclisin plenar iclaslarında spiker Oqtay Əsədov bəzi hallarda deputatlara müxtəlif məsələlərlə bağlı açıq şəkildə irad bildirir. Bu hal isə bəzən mübahisələrə səbəb olub, bir neçə gün mətbuatın gündəminə çevrilir. Parlamentin dekabrın 1-də keçirilən iclasında isə Oqtay Əsədov deputatlara mobil telefonlarını söndürməyi tövsiyə etmişdi.**

Xatırladaq ki, 2014-cü ildə mətbuatda yayılan xəbərlərdə qeyd olunurdu ki, Azərbaycan Milli Məclisinə smartfon və android tipli telefonla girişə qadağa qoyulub. Daha dəqiq desək, bu barədə Milli Məclisin mətbuat katibi Akif Təvəkküloğu açıqlama vermişdi və söyləmişdi ki, Milli Məclisin binasına daxil olan bütün şəxslərin bu tipli mobil telefonları əlindən alınacaq. O, təhlükəsizlik məqsədilə belə bir qərar qəbul olunduğunu söyləmişdi: "Bu qərar Milli Məclisə daxil olan hər kəsə aid olunacaq. Burada vəzifə bölgüsü aparılmayacaq. Deputatlardan tutmuş, Milli Məclisə gələn qonaqlar və jurnalistlərin hamısının telefonu binaya daxil olarkən əlindən alınacaq".

Bütün dünyada belə bir təcrübənin olduğunu deyən Akif Təvəkküloğlu onu da bildirmişdi ki, prosesə nəzarət də olunacaq. Lakin bu açıqlamanın ardınca deputatlar açıqlama verərək bildirdilər ki, onlar içəri telefonları üzərlərində keçirlər və belə bir qadağa yoxdur.

Maraqlıdır ki, Milli Məclisdə tətbiq olunan bu qadağa parlamentin payız sessiyası zamanı plenar iclasda deputatların bir-birinin əvəzinə səs verməsi ilə bağlı fotoların mediada və sosial şəbəkələrdə yayılmasından sonraya təsadüf edirdi. Fotolarda bir sıra deputatların digərlərinin əvəzinə də səs verməsi əksini tapmışdı və bu, geniş diskussiyalara, tənqidlərə səbəb olmuşdu.

Həmin ərəfədə **deputat Aydın Mirzəzadə** sosial şəbəkədə yazdığı statusunda qeyd etmişdi ki, Milli Məclisə telefonla daxil olmaq qadağası xəbəri düz deyil: "Xəbər düz deyil. 2014-cü ilin yanvarın 1-dən Milli Məclis binasına brauzeri və fotoaparat funksiyası olan telefon aparatı ilə daxil olmaq yasaq edildi. Bu parlament binasının xüsusi rejimli bir obyekt olması ilə bağlıdır və bütün dünyada belə bir praktika vardır. Parlament binasına sadaladığım funksiyaları olmayan telefon aparatı ilə daxil olmağa heç bir qadağa yoxdur. Mən belə bir telefon aparatı (qiyməti 32 manatdır) almışam və binaya daxil olmamışdan əvvəl, nömrə kartımı o aparata yerləşdirərək daxil oluram.

Ona görə də binada olarkən də öz mobil telefonumdan istifadə edə bilirəm. Binaya sadalanan funksiyalı telefonla gələnlər o aparatı girişdə təhvil verməlidirlər. Sadə telefon aparatı olanlar isə problemsiz binaya daxil olurlar və aparatlarını təhvil verməyə ehtiyac olmur".



Parlament jurnalistləri bildirirlər ki, hazırda deputatlar iclas zalına belə smartfonları ilə daxil olurlar və buna heç bir qadağa qoyulmayıb. Ancaq jurnalistlər və digər şəxslər Milli Məclisin binasına daxil olan zaman, giriş qapısının ağzında onların mobil telefonunu alıb, yalnız binanı tərk etdiyi zaman qaytarırlar.

*Bəs deputatlara qoyulan telefon qadağası götürülübmü?*

"Yeni Müsavat"a danışan **deputat Tahir Kərimli** bildirdi ki, hazırda parlamentin iclasına mobil telefonla gələn də var, gəlməyən də: "Hər halda bu qadağa ilə bağlı xəbərlər Milli Məclisin əvvəlki tərkibi ərəfəsində yayılmışdı. O zaman isə mən deputat deyildim. İndi də telefondan istifadə edən də olur, etməyən də. Ancaq onu deyim ki, ABŞ Konqresində olduğum zaman müşahidə etdim ki, orada Konqres hətta vətəndaşlar üçün də açıq idi. Yəni kim istəsə gəlib reportaj edə bilərdi və s. Texnologiyanın bu cür inkişaf etdiyi zamanda belə qadağaların olması da doğru deyil. Hər-halda bu barədə mənə heç nə deyilməyib və ona görə də məlumatlı deyiləm".

**Deputat Fazil Mustafa** isə bildirdi ki, android sistemli telefonlardan istifadə olunmur: "Oqtay Əsədovun iradına gəlincə isə bu, telefon işlətməklə bağlı deyildi. Onunla bağlı idi ki, telefon zəngləri iclasın gedişinə mane olur. Spiker də bunu nəzərdə tuturdu".

❑ **Əli RAİS,**
❑ **"Yeni Müsavat"**

# Qisasçılıq vəd edən müxalif qüvvələr...

## "Linç etmək kimi mesajları yazan, dilinə gətirən hansısa müxalifətçi təmsil olunduğu düşərgəyə çox böyük pislik etmiş olur"

**Sosial şəbəkələrdə müxalifəti təmsil edən bir sıra şəxslərin hakimiyyətə gələcəkləri halda nələr edəcəkləri haqda ara-sıra yazıları müşahidə olunur. Onların sırasında normal yanaşma tərzi ilə seçilənlərlə yanaşı heyrət yaradanları da olur. Məsələn, bir görürsən tanınmış müxalifət partiyalarının üzvləri sosial şəbəkədə "hakimiyyət dəyişəcəyi halda korrupsioner məmurlar linç ediləcək, biz iqtidara gələndə bu məmurları xalqın linç etməsindən qoruya bilməyəcəyik" və bu kimi qorxu saçan statuslar yazırlar, şərhlər verirlər.**




Bu tipli yanaşmanı özünü hakimiyyətə alternativ kimi təqdim edən qüvvələrin sıralarında olan şəxslər ortaya qoyanda heyrətlənməmək mümkün deyil. Belə yanaşma tərzi ilə onlar nə etdiklərinin fərqindədirlərmi? Qisasçılıq hissi ilə yaşayan qüvvəyə xalqın və beynəlxalq güclərin münasibəti necə ola bilər?

**Politoloq Natiq Miri** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, qisas xarakterli bəyanatların, mesajların yazılması, səsləndirilməsi nə siyasi, nə əxlaqi, nə də hüquqi cəhətdən doğru deyil. Çünki müxalifətdə olan hər bir siyasətçi və ya siyasi partiya hakimiyyətdən daha demokratik olduğunu ictimaiyyətə daim aşılamalıdır: "Müxalifət demokratiya, insan haqları və digər məsələlərdə hakimiyyətdən öndə sayırsa, hakimiyyətə gələcəkləri halda qisasçılıq edəcəklərsə, zamanında onların hüquqlarını pozmuş hakimiyyət təmsilçilərini linç edəcəklərsə onda hansı demokratiyadan, hansı hüquqdan söhbət gedə bilər? Hakimiyyətə iddialı olan siyasi qüvvə mövcud hakimiyyətdən müsbət mənada fərqli olduqlarını ortaya qoymalıdırlar ki, xalq onların fərqli olduğunu görsün. Yoxsa ki, qisas xarakterli açıqlamalar verilərsə insanlar əmin olacaq ki, bu siyasi qüvvələr də hakimiyyətə gələrsə qanunlar ayaq altına atılacaq, zorakı siyasi xətt yürüdüləcək. Belə olduğu halda təbii ki, xalq belə qüvvənin hakimiyyətə gəlişini istəməz və onun arxasınca getməz. Müsbət dəyişiklik olmayacağı təqdirdə xalq niyə hakimiyyət dəyişikliyini istəməlidir? Əlbəttə ki, istəməyəcək. Xalqda haqlı olaraq sual yaranacaq ki, əgər siz linçi, qisasçılığı doğru sayırsınızsa və hüququ asanlıqla gözardı edə bilirsinizsə, siz bəri başdan özünüzü anti-demokratik hakimiyyətlə eyniləşdirirsiniz".

**Politoloq hesab edir ki, ikinci önəmli məsələ o cür linç xəbərdarlıqlarının, hədələrinin beynəlxalq aləmdə, Azərbaycanda demokratiya və insan hüquqlarının normal şəkildə olmasını istəyən beynəlxalq dairələrdə yaradacağı reaksiyadır, rəydir.** "Hakimiyyətə gələndə filankəsləri linç edəcəyik, filan qisası alacağıq" kimi hədə xarakterli mesajlar, statuslar yazan müxalifət qüvvələrinin nəyə kökləndiyini, hansı hisslərlə yaşadıqlarını görən həmin beynəlxalq dairələr fikirlərindən keçirdisə belə artıq bundan sonra həmin müxalifətçilərin olduğu düşərgəyə heç zaman dəstək verməzlər. Qisasçılıq hissi ilə yüklənən siyasi zehniyyətin ölkəni ciddi problemlərlə üz-üzə qoymaq riskinin böyük olduğunu görən heç bir beynəlxalq güc bu zehniyyətin iqtidara gəlməsini istəməz. Düşünəcəklər ki, bunlar gəlincə, elə hər necə olsa da indiki iqtidarın qalması məqbuldur. Qisasçılıq, linç etmək kimi mesajları yazan, dilinə gətirən hansısa müxalifətçi təmsil olunduğu düşərgəyə bu baxımdan da çox böyük pislik etmiş olur. Beynəlxalq dairələrdə müxalifət haqqında çox mənfi rəy formalaşdırır. Etiraf etmək lazımdır ki, müasir dünyada Azərbaycan kimi ölkələrdə müxalifətin hakimiyyətə gəlməsi təkcə xalqın istəyi ilə deyil, həm də beynəlxalq güclərin istəyi ilə mümkün olur. Belə bir istəyin hansısa dairələrdə yaranması ehtimalının üstündən bəri başdan xətti çəkən isə belə çıxır ki, elə müxalifətçilərin özləri olurlar".

**N.Miri qeyd etdi ki, hakimiyyətə alternativ olduqlarını iddia edən qüvvələr açıqlamalarında, yazılarında hər sözü ölçüb-biçməlidirlər. Özlərini demokratiya və insan hüquqlarını hər şeydən öncə tutacaq qüvvə kimi təqdim etməlidirlər. Əks halda beynəlxalq səviyyədə seçim yenə də hakimiyyətin xeyrinə olacaq. Çünki hakimiyyət ən azı beynəlxalq güclər tərəfindən bəlli olan bir siyasi sistemdir.**

❑ **Etibar SEYİDAĞA**

# Prokuror Taleh Bağırzadənin müavininə ağır cəza istədi

**Nardaran hadisələrinə görə həbs edilən şəxslərə prokuror cəza istəyib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində "Müsəlman Birliyi Hərəkatı" adlı təşkilatın sədr müavini Elçin Qasımov, Nardaran hadisələri ilə bağlı saxlanılan Nahid Qəhrəmanov, Ağa-Əli Yəhyayev, Seyfəddin Şirvanov, Fərhad Muradov, Ramil Əliyev, Elgün Axundov, Vüsal Alış, İsa İbrahimov, Seymur Aslanov, Əli Şahbazov və Əmirli Əliyevin cinayət işi üzrə məhkəmənin növbəti iclası keçirilib.

Hakim Mayıl Bayramovun sədrliyi ilə keçirilən prosesdə prokuror çıxış edib.

Prokuror çıxışında Elçin Qasımovun 16 il, Ağa-Əli Yəhyayevin 16 il, Nahid Qəhrəmanovun 14 il, Ramil Əliyevin 14 il, Elgün Axundovun 14 il, İsa İbrahimovun 14 il, Vüsal Alışın 13 il, Fərhad Muradovun 13 il, Seymur Aslanovun 13 il, Seyfəddin Şirvanovun 13 il, Əli Şahbazovun 13 il və Əmirli Əliyevin isə 13 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, Nardaran hadisələri 2015-ci il noyabrın 26-da baş verib.

Daxili İşlər Nazirliyinin (DİN) yaydığı məlumata görə, keçirilən əməliyyat zamanı "Müsəlman Birliyi Hərəkatı" adlı təşkilatın sədri Taleh Bağırov başda olmaqla, daha bir neçə üzv saxlanılıb.

Nardaran hadisələri ilə bağlı həbs edilən 1-ci qrup - "Müsəlman Birliyi" təşkilatın sədri Taleh Bağırov və Abbas Hüseynov 20 il, Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) sədrinin müavini Fuad Qəhrəmanlı 10 il və digər şəxslər də hökm oxunub.

Nardaran hadisələri ilə bağlı saxlanılan 3-cü qrupun üzvləri - Zülfüqar Mikayılov 17 il, Faiq Allahverdiyev 13 il, Əli Hüseynov 12 il 3 ay, Mehman Quliyev 13 il və digərlərinə də hökm oxunub.

❑ **İ.MURADOV**

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

# Zərrabın işində falçı iddiası

## İş adamının 3 yaxın adamı həbs olundu - onlardan biri amerikalı prokuror və hakimin "ağzını bağlamaq" üçün falçı tutubmuş

**Xəbər verdiyimiz kimi, Rza Zərrabın şahidlik etdiyi məhkəmədə yeganə müttəhim olaraq iştirak edən "Xalqbank"ın keçmiş sədr müavini Hakan Atilla məhkəmə ilə əməkdaşlıq etməyə qərar verib. A.Hakan həbs olunduğu gündən başlayaraq heç bir sorğuda ona ünvanlanan sualları cavablandırmayıb.**

"Yeni Müsavat" xəbər verir ki, R.Zərrab ətrafında davam edən proseslər isə rəngini dəyişir. Belə ki, Azərbaycan əsilli iş adamının saxlanılan 14 əməkdaşı sərbəst buraxıldığı halda, 3 işçisi həbs olunub. İddiaya görə, Zərrab "amerikalı hakim və prokurorların ağzı, gözünün bağlanması, onların nə desə ona inanması üçün cadu etdirmək üçün işçilərini Hatay, Fas və Dubaya göndərib. Zərrabın "qara qutusu" olduqları iddia edilən katibəsi Sinem A., mühasibi Regaip A. Ilə Mustafa H. türməyə göndərilib. Digər 14 nəfər şübhəli isə nəzarət şərti ilə azadlığa buraxılıb.

Xəbərlərdə həmçinin qeyd olunurdu ki, ABŞ-a getmədən öncə Zərrabın 3 il boyunca asistanlığını edən Sinem A-nın onun bütün özəl və gizli yazışmaları barədə xəbərdar olduğu iddia edilirdi. Bundan başqa, A-nın 17-25 dekabr əməliyyatlarından sonrakı münasibət və yazışmaları təşkil edən "qara qutu" olduğu da iddialar arasında idi. Regaip A. Isə Zərrabın pul məsələlərini izləməkdə ittiham olunur.

R.Zərrabın "Dayım mənim" adlı ingilis atının ödəmələrini də mühasib Reqaip A edirdi. Həbsdəki digər işçisi Mustafa H. isə R.Zərrabın iş yeri və evlərindəki təhlükəsizlik kameralarının da aralarında olduğu texniki işlərini həyata keçirirdi. Zərrabın Sarıyerdə yerləşən şirkətindəki sənədləri yandıran işçilər onların lazımsız olduğunu iddia edirdi.


Rza Zərrab

Yazının girişində yazdığımız falçı iddiası isə artıq təsdiqlənib. Zərrabın ABŞ-da həbs olunandan sonra oradan Türkiyəyə göndərdiyi məkublarda bu məqam öz əksini tapıb. Katibə Sinem A-nın Zərrabın istəyi ilə görüşdüyü falçının kim olduğu isə müzakirə mövzusudur. Zərrabın falçısının çox sayda məşhura məsləhətçilik edən Ş.B olduğu iddia edilir.

Bundan başqa, İstanbul Cümhuriyyət Baş Prokurorluğu tərəfindən Zərrab və yaxınlarının mal varlıqlarına əl qoymuşdu. Buna səbəb R.Zərrabın "Türkiyə Cümhuriyyəti Dövlətinin təhlükəsizliyi, daxili və xarici siyasi faydalar baxımdan gizli qalmalı olan məlumatları xarici dövlət lehinə siyasi və əsgəri cəsusluq məqsədiylə təmin etməsi" olub. Baş prokurorluq Zərrabın mal varlıqlarını ölkə xaricinə qaçırmaq üçün cəhdlər etməsi ilə bağlı bəzi sübutlar əldə edib.

ABŞ-ın İrana qarşı tətbiq etdiyi maliyyə sanksiyalarını pozmaqda ittiham edilən azərbaycanlı iş adamı Rza Zərrabın ABŞ-la əldə etdiyi razılaşmanın detalları ortaya çıxıb.

Detallar Türkiyənin "Milliyyət" qəzetinin yazarı Kortan Toygar tərəfindən mətbuata verilib.

O, məqaləsində yazdığı məlumatların siyasi dəyər daşımadığını və tamamilə hüquqi olduğunu qeyd edib.

Rza Zərrabın ABŞ məhkəməsi ilə əldə etdiyi razılaşma belədir:

**Qəbul etdiyi ittihamlar:**

Nyu-Yorkun cənubi bölgə məhkəməsi dəlilləri və tərəflərin təqdim etdiyi bəzi sənədləri ictimaiyyətə elan etməyə başlayıb. İctimaiyyətə son olaraq 20 noyabrda Rza Zərrab ilə vəkili tərəfindən imzalanmış razılaşmanın detalları açıqlanıb.

**1**. ABŞ və xüsusilə, ABŞ Maliyyə Nazirliyini aldatmaq üçün pusqu qurmaq (maksimum 5 il həbs cəzası, 250.000 dollar pul cəzası ya da bu yolla qazanılan pulların 2 qatı)

**2**. Beynəlxalq Təcili İqtisadi Güc Qanununu pozmaq üçün plan qurmaq (International Emergency Economic Powers Act) (maksimum 20 il həbs, 1.000.000 dollar pul cəzası ya da bu yolla qazanılan gəlirin 2 qatı

**3**. Nazirlik sistemində saxtakarlıq (maksimum 30 il həbs, 1.000.000 dollar və ya bu yolla əldə edilən gəlirin 2 qatı)

**4**. Nazirlik sistemində saxtakarlıq etmək üçün pusqu qurmaq (maksimum 30 il həbs, 1.000.000 dollar və ya bu yolla əldə edilən gəlirin 2 qatı)

**5**. Çirkli pulları yumaq (maksimum 20 il həbs, 500.000 dollar pul cəzası və ya bu yolla əldə edilən gəlirin 2 qatı)

**6**. Çirkli pulları yumaq üçün planlar qurmaq (maksimum 20 il həbs, 500.000 dollar və ya bu yolla qazanılan gəlirin 2 qatı)

**7**. Qanun qoruyucusuna rüşvət vermək, narkotik maddə ilə təmin etmək üçün plan qurmaq (maksimum 5 il həbs, 250.000 dollar və ya əldə etdiyi gəlirin 2 qatı).

Əlavə olaraq, protokolda Rza Zərrabın bütün bildiklərini hakimlərə gerçəklərə uyğun şəkildə anlatmaq, Federal Büro (FTB) və digər qüvvələrlə işbirliyi etmək, hakimlərin istədiyi bütün səbədləri təqdim etmək, jüri qarşısında dürüst olmaq, bu protokoldan sonra hər hansı cinayət törətməmək kimi şərtlər də qeyd edilib.

**R.Zərrab bu razılaşmaya getməsəydi, onu 130 il həbs və 4 milyon 500 min dollar pul cəzası gözləyirdi.**

❑ Sevinc TELMANQIZI

# "Məhkəmə icraçıları 1 ildir məni yollarda qoyub"

## Bakı sakini məhkəmənin qərarının yerinə yetirilməməsindən şikayətlənir

**Bakı şəhəri Yeni Günəşli qəsəbəsi Ev 135, mənzil 61-də yaşayan Xavər Məhərrəmova redaksiyamıza gələrək şikayətlənib. O, qeyd edib ki, illərlə üst mənzildən su sızması onun evini bərbad hala salıb:**

"Mənzilim 4-cü mərtəbədə yerləşir. 5-ci mərtəbədə, üst mənzil isə Nailə Quliyevaya məxsusdur. O, artıq 5 ildir ki, mənzilini kirayəyə verir. Bir neçə ildir ki, onun mənzilindən mənim evimə su sızdığından, mənzilim bərbad vəziyyətə düşüb. Buna görə dəfələrlə öz hesabıma təmir işləri aparmışam. Qonşuma bu barədə çoxsaylı müraciətlər etsəm də, o, buna məhəl qoymayıb, dəymiş ziyanı ödəməyib, bu haqda tədbir görməyib. Bu səbəbdən aramızda dəfələrlə mübahisə yaranıb. 2015-ci ilin iyul ayında növbəti dəfə mənim mənzilimə su sızdığı üçün aramızda münaqişə yarandı.



Nəticədə məsələni araşdıran sahə müvəkkili tərəfindən kirayədə yaşayanlar barəsində inzibati xəta protokolu tərtib olundu. Sonradan mənzilə baxış keçirilərək, həqiqətən mənim evimə ziyan dəydiyi haqda akt tərtib edildi. Belə ki, mənzilin tualet və yardımçı otağının tavanı və aşağı hissələri nəm çəkərək yararsız hala düşmüşdü".

**Şikayətçi qeyd edib ki, yaranmış olayla bağlı məhkəməyə müraciət edib:** "Bununla bağlı Suraxanı Rayon Məhkəməsi ötən ilin dekabrın 19-da qərar çıxartdı. Qərar əsasən cavabdeh Quliyeva Nailə Özbək qızından mənə vurulan maddi zərərə görə 588 manat və mənəvi ziyana görə 500 manat alınaraq mənə verilməlidir".

Şikayətçinin sözlərinə görə məhkəmə qərar çıxartsa da, artıq bir il ötməsinə baxmayaraq qarşı tərəfdən təzminatını ala bilmir: "Əvvəlcə məhkəmənin qərarının icrasına Bakı şəhərində baxılsa da, sonradan icra sənədi Lənkəran rayonuna göndərildi. Lənkəran rayon icra şöbəsi 15 noyabr 2017-ci ildə qərarının icrası ilə bağlı iş üzrə icraata başlanılması haqda qərar çıxartmasına baxmayaraq bu günədək qarşı tərəfdən borcumu ala bilmirəm. Bir il ərzində mənə yalnız "söz"lə vədlər verilib, qarşı tərəflə "danışacaqlarını" bildiriblər. Nəticədə isə məhkəmənin qərarı ilə çıxarılan icraat yerinə yetirilməyib. Aidiyyəti orqanlardan xahiş edirəm, hüquqlarımın bərpası üçün mənə köməklik göstərsinlər".

**Məsələ ilə bağlı qarşı tərəfin də rəyini dərc etməyə hazırıq.**

❑ Xalidə GƏRAY


**Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!**

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə, onda**
**Dr. Vaiz Səmədov sizə kömək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması
və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez,
* Saçların tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması
(8-10 yaşından sonra).

**Doktor V.Səmədova saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.




# «Bakcell» şirkəti və Qərbi Kaspi Universiteti arasında əməkdaşlıq haqqında memorandum imzalanıb

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti və Azərbaycanın ilk özəl ali təhsil müəssisəsi olan Qərbi Kaspi Universiteti (Western Caspian University) arasında əməkdaşlıq memorandumu imzalanıb. Dekabr ayının 14-də «Bakcell» şirkətinin baş icraçı direktoru Nikolai Beckers və Qərbi Kaspi Universitetinin rektoru Andris Leitas tərəfindən imzalanan Memoraduma əsasən, tərəflər arasında elm, təhsil, kadr məsələləri və qarşılıqlı maraq kəsb edən digər sahələrdə əməkdaşlığın qurulması nəzərdə tutulur. Bu əməkdaşlıq çərçivəsində görüləcək işlər ölkəmizdə təhsil və iqtisadiyyatın inkişafı üçün faydalı olmaqla yanaşı, Azərbaycan gənclərinin əmək bazarına uyğun mütəxəssis olaraq yetişdirilməsinə töhfə verəcək.**

**«Bakcell» ilə imzaladığımız bu razılaşma gənclərimiz üçün yeni gözəl imkanlar yaratmaqla yanaşı bir çox birgə layihələrin həyata keçirilməsi üçün başlanğıc nöqtəsi olacaqdır. Həmçinin, birgə fəaliyyətimiz çərçivəsində universitet tələbələrinin «Bakcell» şirkətinin müxtəlif təcrübə və stajkeçmə proqramlarında iştirakı və digər birgə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bundan əlavə, «Bakcell»in təcrübəsi universitetimiz tərəfindən qurulmuş Texnoparkın inkişaf etdirilməsinə, bu Texnoparkda müxtəlif istiqamətlər üzrə Startap layihələrinin həyata keçirilməsinə böyük dəstək olacaq", deyə Andris Leitas bildirib.**

**"Azərbaycanın milli mobil operatoru olaraq, «Bakcell» şirkəti üzün illərdir ki Azərbaycan gənclərinə təhsil və karyeranın qurulması istiqamətlərində dəstək göstərməkdədir. Bu fəaliyyət çərçivəsində gənclər üçün şirkətdə təcrübə və iş imkanları yaradılıb. Biz, Qərbi Kaspi Universiteti ilə əməkdaşlığa başlamağımıza çox şadıq və təbii ki, universitetin mühüm layihələrinin həyata keçirilməsində öz dəstəyimizi əsirgəməyəcəyik", deyə Nikolai Beckers bildirib.**

**Tərəflər arasında imzalanmış sənəd müxtəlif sahələr üzrə elmi tədqiqat işlərinin aparılmasında stimullaşdırıcı tədbirlərin qarşılıqlı həyata keçirilməsi, tələbələrin təcrübə keçməsi üçün dəstək verilməsi, universitet məzunlarının ixtisaslarına uyğun işlə təmin edilməsinə dəstək verilməsini nəzərdə tutur. Eyni zamanda, razılaşmaya əsasən, «Bakcell» şirkəti özünün Applab layihəsi çərçivəsində gördüyü işlərə əsaslanaraq universitet tərəfindən qurulmuş Texnoparkın (Yüksək Texnologiyalar Parkının) inkişaf etdirilməsi və orada müxtəlif istiqamətlər üzrə startap layihələrinin həyata keçirilməsi sahəsində öz təcrübəsini bölüşəcək.**

YENİ MÜSAVAT
N 264 (6877) 16 dekabr 2017

# Putinin sürprizlərlə dolu rəqib(əs)i-Sobçak kimdir?

## Qalmaqallar kraliçası, savadlı beynəlxalq əlaqələr məzunu, ya?..

**Xəbər verdiyimiz kimi, Rusiya prezidenti Vladimir Putin dekabrın 14-də illik mətbuat konfransı keçirib. Konfransda 1600-dən çox jurnalist qeydiyyatdan keçib. Prezident Putinin mətbuat konfransında bu yaxınlarda Rusiya prezidentliyinə namizədliyini irəli sürmüş Kseniya Sobçak da jurnalist qismində auditoriya arasında olub. Vladimir Putinə sual verdiyi zaman Kseniya bildirib ki, mətbuat konfransına “Dojd” telekanalının müxbiri kimi gəlib.**





**Konfransda namizədlər atışdı**

“Çünki bu, sizə sual verməyin yeganə imkanıdır, axı siz debatlarda iştirak etmirsiniz”. Sobçak Putinə sualını bu kəlmədən başlayıb. Kseniya Sobçak deyib ki, Rusiyada “müxalifət namizədləri seçkilərə ya buraxmırlar və ya onlara problem yaradılır”. Sobçak sualına belə davam edib: “Aleksey Navalnı namizəddir. Ona qarşı qurama cinayət işləri qaldırılıb. Avropa Məhkəməsi ona qarşı çıxarılan hökmləri qanunsuz sayıb. Lakin Navalnı yenə də seçkilərə buraxılmır. İnsanlar anlayır ki, bu gün müxalifətçi olmaq o deməkdir ki, səni öldürəcəklər və ya həbs edəcəklər. Niyə bu belədir? Hakimiyyət rəqabətdənmi qorxur?”

Putin Kseniya Sobçakın sualına cavab verərkən rusiyalı müxalifətçi Aleksey Navalnın adını çəkməyib: "Bax, siz “Hamıya qarşı” şüarı altında gedirsiz. Bu nədir? Pozitiv hərəkət proqramıdır məgər? Bu gün müzakirə etdiyimiz problemlərin həlli üçün siz nə təklif edirsiz? Adlarını çəkdiyiniz personajlara gəlincə isə, burada artıq Ukrayna barədə sual verilmişdi. Siz istəyirsiz ki, bizim meydanlarımızda onlarla ...Saakaşvili kimiləri qaçsın? Adlarını çəkdiləriniz - elə həmin Saakaşvilidilər, amma onun Rusiya variantı. Siz istəyirsiz ki, Saakaşvili kimilər ölkədə stabilliyi pozsun?"

**Daha sonra Putin davam edib:** “Mən əminəm ki, vətəndaşların əksəriyyəti bunu istəmir və buna yol verməyəcək. Rəqabət isə olmalıdır və şübhəsiz, olacaq. Hakimiyyət heç kimdən qorxmur”.

“Biz Rusiyada ikinci Ukraynanın baş verməsini istəmirik. İstəmirik və buna yol verməyəcəyik”, - Kseniya Sobçakın sualına prezident Putin cavabını bu sözlərlə bitirib.

**Sobçak özünü “gözlənilməz” və qələbə şansı az olan namizəd adlandırıb**

Bəli, bu, namizədlər arasındakı ilk üzbəüz “atışma” sayıla bilər. Amma bu günə qədər Sobçak və Putin arasında dalğavari münasibətlər olub. “Yeni Müsavat” bu münasibətlərin məcrasına və ümumiyyətlə, Putinin “şıltaq, qalmaqallı, seksual” rəqibinin dosyesinə nəzər salır.

Öncə ondan başlayaq ki, Sobçak bu ilin oktyabrında Putinə rəqib olduğunu bəyan edib. O, martda keçiriləcək seçkilərdə iştirakını “gözlənilməz namizədliyi” ilə izah edir. Xanım Sobçak ilk gündən deyib ki, namizədliyi qəbul edilməyən müxalifət lideri Aleksey Navalnını dəstəkləyir. Ancaq Navalnı ona namizəd olmaması ilə bağlı xəbərdarlıq edib.

İlk vaxtlar Kreml Sobçakın namizədliyini qəbul edərək bunun, “tamamilə konstitusiya uyğun olduğunu” söyləyib. Amma Kseniya seçkilərdə qələbə qazanmaq şansının az olduğunu etiraf edib. O, bu haqda Britaniyanın “The Guardian” qəzetinə müsahibəsində bildirib. “Heç bir siyasi çəkim yoxdur. Ona görə də hansısa siyasi proqram başlada bilmərəm. Sadəcə, hazırkı rəhbərliyin siyasətindən narazı olanlar məni dəstəkləyə bilər”, - K.Sobçak deyib.

K.Sobçak onun kampaniyasının Kreml tərəfindən dəstəklənməsi fikrini qətiyyətlə rədd edib.

Amma Sobçak yerli mətbuata müsahibələrində iddialarını daha da qabartmanın tərəfdarıdır. Məsələn, “Dojd” kanalının baş direktoru Natalya Sindevaya müsahibəsində o, qələbəsinə ümid bəslədiyini deyib. Aparıcı onun cəmi 2 faiz səs toplayacağını proqnozlaşdıranda Sobçak buna belə etiraz edib: “Milyonların səsini qazanacağıma şübhə etmirəm. Piara ehtiyacım yoxdur. Seçki qrafamda yazılacaq ki, tək Putinə deyil, bütün namizədlərə qarşıyam. Soruşsaz kim maliyyələşdirəcək bu seçki marafonumu, deyəcəm heç kim. Sadə, narazı biznesmenlər. Sıralarımda pərəstişkarlarım az deyil”.

“Mümkündür ki, oğlum səsvermə yaşına çatdıqda, hələ də eyni namizədlər olacaq, - ötən il ana olmuş K.Sobçak "YouTube"dakı videoda namizədliyini elan edərkən bildirir. - Biz hakimiyyət sistemini dəyişdirməliyik", - deyərək o əlavə edib ki, Putinə öz qərarından danışdıqda dövlət başçısı məmnun deyildi.

**Sobçakın bir neçə üzü - ərköyün varlı qızı, savadlı, bacarıqlı gənc xanım, ya qalmaqallar kraliçası?**

Kimdir bu Sobçak? İllərdir “sarı mətbuat”ın bəh-bəhlə şəkillərini, qalmaqallarını, özəl həyatını yaydığı bir xanım birdən-birə necə prezidentliyə namizəd oldu?

**BBC Kseniya Sobçakı belə təqdim edir:**

36 yaşlı, 1990-cı illərdə az tanınmış keçmiş KGB əməkdaşı Vladimir Putinə iş vermiş Sankt-Peterburqun keçmiş meri Anatoliy Sobçakın qızıdır. Rusiyanın “Paris Hiltonu” ləqəbli Sobçak, “Dom-2" adlı populyar tanışlıq realiti şousu ilə şöhrət qazanıb. Bəzi tərəfindən əyləncəni sevən qız kimi tanınan Sobçak balonlu bir hamamdan başqa bir realiti-şousunu təqdim edərək diqqət çəkib.

K.Sobçak 1981-ci il noyabrın 5-də Leninqrad Dövlət Universitetinin hüquq fakültəsinin dosenti Anatoli Sobçakın və həmin universitetin tarix fakültəsinin müəllimi Lyudmila Narusovanın ailəsində dünyaya gəlib. Bu, 44 yaşlı Anatoli Sobçakın ikinci nikahı və ikinci qızı idi. Sobçakın özündən 16 yaş böyük bir bacısı da var. Mariya Sobçak Anatoli Sobçakın filoloq Nona Qadzyukla nikahından dünyaya gəlib. İxtisasca hüquqşünasdır.

Kseniya öncə 185 saylı “ingilis məktəb”ində təhsil alıb. Paralel olaraq balet studiyasına və rəsm məktəbinə gedib. Sobçakın yanına, evə kompozitor Vladislav Uspenski dərs verməyə gəlib və ona pianoda ifa etməyi öyrədib. Olduqca savadlı və humanitar fənlərə meylli uşaq olub.

1998-ci ildə o, Sankt-Peterburq Dövlət Universitetinin beynəlxalq əlaqələr fakültəsinə qəbul olunub. 3 il sonra isə Moskvaya köçəndə Moskva Dövlət Universitetində analoji təhsili alıb. Bir il sonra bakalavr dərəcəsi alıb - onun diplom işi Fransa və Rusiyada prezidentlik rejimi barədə idi. Sobçak daha sonra politologiya fakültəsinin magistraturasına qəbul olub və oranı da 2004-cü ildə bitirib. Ardınca aspiranturaya qəbul olsa da, oranı bitirməyib.

**Şöhrətə apan yol**

Məşhurluq ona 16 yaşında gəlib. Həmin vaxt “Ekspress-kuryer” adlı Rusiya tabloidi yazı yazmışdı ki, Sankt-Peterburq şəhər merinin qızını qaçırıblar. 17 yaşında, yəni, 1998-ci ildə o, 43 yaşlı iş adamı Ömər Cəbrayılov, daha sonra Vyaçeslav Leybman, ardınca isə Aleksdanr Şustoroviçlə eşq romanı yaşayıb.

K.Sobçak ölkənin ən nüfuzlu qadınları siyahısında 22-ci yeri tutur. Onun Rusiya teleməkanına ayaq basması da 2004-cü ilin mayın 11-ə təsadüf edir. O, TNT-də yayımlanan “Dom-2" realiti-şousu ilə teleməkanda adını tanıtdı və 2012-ci ilin iyuluna kimi "Dom-2" layihəsinin aparıcılarından biri oldu. Aparıcılıqla yanaşı, Kseniya “Ulduzlarla sirk” verilişində, eləcə də Timatinin klipində rol alıb.

K.Sobçakın telekaryerasında “Kim milyonçu olmaq istəmir?”, “Sonuncu qəhrəman-6" verilişlərinin aparıcılığı, "Serebrannıy dojd" radiosunda “Barbaka və boz canavar” verilişinin aparıcılığı da var idi.

Kseniya 2010-cu ilin aprelində “5-ci kanal”da “Fikir azadlığı” tok-şousunu, 2011-ci ilin avqustunda isə Ukraynanın STB telekanalında “Gəl, evlənək” layihəsinin aparıcısı olub.

Lakin 2011-ci ilin sonlarından Kseniya Sobçak Putin hakimiyyətinə qarşı müxalif mövqeyi ilə seçilməyə başlayır. Buna səbəb kimi Dmitri Medvedyevin 4 illik prezidentlik müddətindən sonra (2008-2012) Vladimir Putinin 3-cü müddətə prezident olmaq niyyəti idi. Rusiyanın müxalifyönlü mediası yazır ki, məhz bundan sonra Sobçakın bəzi kanallarda aparıcılığına nöqtə qoyulub.

**Aktrisalıq da edib, kitab da yazıb, ana da olub - daha nə?**

Ksyuşa deyib, keçməyin. Onun aktrisa kimi karyerası da olub. O, ilk rolunu 2003-cü ildə “Oğrular və fahişələr” adlı filmində oynayıb və orada jurnalist obrazını canlandırıb. 2006-cı ildə isə ekranlara “Şokoladda sarışın” adlı film çıxdı ki, orada da baş rolu Paris Hilton oynayırdı. Kseniya isə onun replikalarını rus dilində səsləndirirdi. 2007-ci ildə isə o, “Ən yaxşı film” adlı filmdə fahişə obrazını canlandırıb.

Bununla bitərmi? Bitməz. Xanım Sobçak 36 illik ömrünə 5 kitab da sığdırıb. Kitablar isə daha çox əyləncə xarakterli, qeyri-ciddi ədəbiyyat siyahısına daxil olub. “Kseniya Sobçakın stil zarafatları”, “Gözəlliyin əlifbası - maskalar, biqudilər, bəzəklər”, “Millionerə ərə getmək və ya yüksək sortda nikah”. Adlar hər şeyi deyir, prinsipcə.

2013-cü il fevralın 1-də Rusiya mətbuatı Kseniya Sobçakın qəfil evlilik xəbərini yayıb. Qalmaqallı şəxsi həyatı ilə daim gündəmdə olan xanım 41 yaşlı aktyor və rejissor Maksim Vitorqanla ailə həyatı qurub. Bu, Vitorqanın üçüncü nikahıdır. 2016-cı ilin 18 noyabrında isə Sobçakın oğlu dünyaya gəlib. “Mən dünyanın ən gözəl körpəsinin anasıyam” deyə Kseniya bu haqda İnstaqram səhifəsində yazıb, uşağın adını Platon qoyublar. Məlumatlarda o da qeyd olunur ki, Kseniyanın qayınatası Rusiyanın xalq artisti Emmanuil Vitorqran 1939-cu il dekabrın 27-də Bakı şəhərində anadan olub.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 264 (6877) 16 dekabr 2017



## Edamdan 18 il sonra bəraət alıb

Çində 1996-cı ildə edam olunmuş 18 yaşlı gənc 3 il öncə bəraət alıb. Məhkəmə ədalətsiz qərarla edam edilmiş gəncin valideynlərindən üzr istəyib. Huuqci adlı həmin gənc qadını zorlamaqda, sonra da qətlə yetirməkdə suçlanmışdı. Daxili Monqolustan əyalətinin Ali Məhkəməsi edam hökmunun çıxarıldığı prosesdən 18 il sonra qərara gəlib ki, Huuqci günahsız olub.

Yeni qərar edam olunmuş gəncin dostu Yan Fenin iradəsinə əsaslanır. O, Daxili Monqolustan əyalətinin paytaxtı Huhhoto şəhərindəki ictimai ayaqyollarından birində qadın qışqırıqları eşidiləndə Huuqcinin yanında idi. Yan Fen keçib getmək istəsə də, Huuqci qadına yardım etmək istəyib.

"Daha sonra o, hadisə ilə bağlı xəbər vermək üçün polisə yollandı. Halbuki, mən Huuqciyə belə etməməyi deyirdim", - Yan Fen deyib.

2005-ci ildə qatil və seksual manyak Çjao Çjihun həbs olunduğu polisdə ifadə vermiş, Huhhotodakı ayaqyolunda qadını zorlayıb öldürdüyünü etiraf etmişdi. Daxili Monqolustanın Ali Məhkəməsi edam olunmuş gəncin ailəsinə təzminat qismində 30 min yuan (təqribən 5 min dollar) verilməsi barədə qərar qəbul edib.

# Xəstələrin ciyərinə adının baş hərflərini yazıb

İngilis cərrah Simon Bramhall əməliyyat etdiyi xəstələrin qara ciyərinə adının baş hərflərini yazıb. Birmingham Cəza Məhkəməsində hakim qarşısına çıxan Bramhall 2013-cü ilin fevral-avqust aylarındakı əməliyyatları zamanı ad-soyadının baş hərfləri olan S və B-ni iki xəstənin qara ciyərinə şüa ilə yandıraraq yazıb. 53 yaşlı həkim haqqında yekun qərarın gələn ay açıqlanması gözlənilir. Bramhallun qoyduğu yanıqların zərərsiz, daxilə təsir etməyən, üzdən olduğu təsdiqlənsə də, etik baxımdan bunun həkim etikasına uyğun gəlmədiyi bildirilir.



Həkimin çalışdığı xəstəxana onun 10 ildə əməliyyat etdiyi yüzlərlə xəstənin daxili orqanlarına adının baş hərflərini yazmış olmasından narahatdır. Qara ciyər cərrahları orqandakı qanamaları şüadan istifadə edərək, dayandırır. Onun bu əməli barədə başqa bir cərrah xəbər tutandan sonra barəsində şikayət edilmişdi. 2013-cü ildən işdən çıxarılan cərrah barədə istintaq da başlanıb.

# Hamama girən qadın... 3 dəqiqəyə uşaq doğdu



36 yaşındakı hamilə qadın hamamda uşağını dünyaya gətirib. Ana heç bir ağrı hiss etməyib və doğuş sadəcə 3 dəqiqədə baş tutub. İlk 2 doğumu 15 və 18 saat davam edən 36 yaşındakı Kat Smit 3-cü doğumunu 3 dəqiqə içində gerçəkləşdirib. Bununla da dünyanın ən sürətli və ağrısız doğumu həyata keçirib. "The Sun" yayımlanan xəbərə görə, Kat ilk 2 doğumu olduqca sancılı olduğu üçün özünü ən pis varianta hazırlayırdı. Amma hadisə baş verən gün işdən 28 dəqiqə tez çıxaraq evə gəlib və hamama girib. Doğumu 4 gün sonra gözlənilirdi. Hamamda xəfif bir ağrı hiss edib, 3 dəqiqə sonra isə uşağını qucağına alıb. Həmin günün sabahında qasıqlarında bir hərəkətlilik hiss edərək yuxudan oyanan Kar doğum günü yaxınlaşdığı üçün bunun normal olduğunu düşünüb. İşə getdiyi zaman isə yenə də eyni şeyi hiss edib və buna görə də istirahət etmək üçün işdən bir qədər tez çıxıb. Bundan öncəki doğumlarının əksinə olaraq, ən kiçik bir ağrı belə hiss etməyən qadının həmin günkü qrafiki isə olduqca maraqlı olub. 10.45-də işdən çıxıb, 11.05-də hamama girib, 11.10-da qarnında bir ağrı hiss edib, 11.13-də uşaq dünyaya gəldi, 11.30-da həkim gəldi.




QOÇ - Ulduzlar pulla bağlı məsələlərdə ehtiyatlı olmağı tövsiyə edir. Bir qədər qənaətcil olmağınız vacibdir. Kiməsə borc vermək və ya maliyyə sövdələşmələrinə giriş-mək yolverilməzdir.

BUĞA - Qarşınızda duran bu təqvimdə hansısa qeyri-adi və yeni işlərə başlamayın. Yaxşısı budur ki, əsas vaxtınızı mənzil şəraitində keçirəsiniz. Yalnız axşam saatlarında qonaq getmək olar.

ƏKİZLƏR - Nədənsə son vaxtlar sağlıq durumunuzla bağlı problemlər baş qaldırmaqdadır. Bu səbəbdən də özünüzə fikir verməli, qida rejiminə riayət etməlisiniz. Soyuq və spirtli içkilərdən uzaq olun.

XƏRÇƏNG - Demək olar ki, həftənin ən uğurlu gününü yaşayacaqsınız. Bir tərəfdən ailə-sevgi münasibətlərində, digər tərəfdən sə işgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə cərəyan edəcək.

ŞİR - Kifayət qədər uğurlu məqamlar yaşayacaqsınız. İştirakçısı olduğunuz hər bir proses yalnız zövqünüzlə uyğunluq təşkil edəcək. Özünüzə inamı artırmaqla uğurları yaxınlaşdırın.

QIZ - Günün ilk yarısını gərgin keçirsəniz də, özünüzü təmkinli aparmaqla gözlənilən xoşagəlməzliyi dəf edə biləcəksiniz. Sonrakı saatlarda sevindirici hadisələrin şahidi olacaqsınız.

TƏRƏZİ - Həddindən ziyadə uğurlu vaxtdır. Əlxüsus da axşam saatlarında bəxtiniz gətirə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq da səngiyəcək. Amma bu gün təkliflərdən imtina etməlisiniz.

ƏQRƏB - Əsas enerjinizi sevgi amilinə yönəldin. Çalışın ki, hər bir kəlmənizdə, hər bir ifadənizdə özünüzə qarşı rəğbət oyadasınız. İndiki sərt cəmiyyətdə kiminsə qəlbinə dəymək savab iş deyil.

OXATAN - Bürcünüzün ən uğurlu günlərindən birini yaşayacaqsınız. Düzdür, bu gün saat 12-ə qədər müəyyən gərginlik olsa da, sonrakı müddətdə ovqatınız çox yüksək olacaq. Sürpriz də gözlənilir.

OĞLAQ - Astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Maraqlı insanlarla rastlaşma ehtimalınız da böyükdür. Bununla yanaşı, bu gün uzaq yola çıxmağa dəyməz.

SUTÖKƏN - Ümumi çalarlarına görə gərgin vaxt olsa da, özünüzü ələ almağı bacarmalısınız. Çünki qarşınızda duran perspektivlərə yetişmək üçün hansısa dedi-qoduya əhəmiyyət verməməlisiniz.

BALIQLAR - Fəaliyyət dairənizi genişləndirmək üçün durmadan işə başlayın. Nəzərə alın ki, bu addım karyeranız üçün böyük əhəmiyyət daşıya bilər. Pul məsələlərində isə ehtiyatlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Çılpaq vəziyyətdə günəş vannası qəbul edənlər...



61 yaşlı fransız əsilli maneken Yasmina Rossi gözəllik sirlərini açıqlayıb. Kaliforniyada yaşayan qadın deyib ki, formada qalmasının sirri dərisinə qulluq, yoqa ilə məşğul olması və çılpaq vəziyyətdə günəş vannası qəbul etməsidir. Lenta.ru saytının xəbərinə görə, Rossi gününü bir stəkan isti su içmək və yuyunmaqla başlayır. Model eyni zamanda yoqa və meditasiya ilə məşğul olur. Qadın dərisinə və saçlarına qulluq üçün orqanik kosmetikadan istifadə edir. O, daha çox yaşadığı evin balkonunda çılpaq vəziyyətdə günəş vannası qəbul etməyin tərəfdarıdır. Bu ilin mart ayında "Rossi The Land of Women x The Dreslynin" reklam kampaniyasında iştirak edib və orada çimərlik paltarlarını geyiniblər. Fotosessiya üçün o, ağ rəngli çimərlik geyimindən istifadə edib. Onun üzündə demək olar ki, makiyaj olmayıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100